# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 196 (6160) 4 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezidentin köməkçisi: "Azərbaycan Ordusu düşməndən fərqli olaraq mülki insanları və obyektləri hədəfə almır"

Bax 3



*Ermənistan öz cinayətlərini ört-basdır etmək üçün Azərbaycan Ordusunun tərkibində muzdluların, hansısa üçüncü ölkənin hərbçilərinin iştirak etməsi barədə yalanlar və fantaziyalar...*

## Prezident İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub



Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları ilə bağlı məsələlər, döyüş bölgəsində vəziyyət müzakirə edilib.

## Anar Eyvazov: Ermənistanın Azərbaycanla dövlət sərhədindəki mövqelərimizi atəşə tutması ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir

Bax 3



*Ötən sutka ərzində Ermənistanın Berd, Çəmbərək, Vardenis və Qafan rayonlarından Tovuz, Gədəbəy, Daşkəsən, Qubadlı və Zəngilanda yerləşən mövqelərimiz atəşkəs rejimini kobud şəkildə pozan düşmən tərəfindən atəşə tutulub. Ermənistanın, xüsusilə Azərbaycanla dövlət sərhədində yerləşən mövqelərimizi...*

## Adil Əliyev: "Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi hələ də gec deyil"



*Əks-hücum əməliyyatlarının başlanmasından qısa bir müddət - bir ay keçməsinə baxmayaraq, Müzəffər Ali Baş Komandanın rəhbərliyində Azərbaycan Ordusu çox böyük qətiyyətlə irəliləyərək uzun illərdir düşmən tapdağında qalmış bir çox ərazilərimizi işğaldan azad etdi və bu istiqamətdə...*

Bax 4

## Düşmən ağır itkilərə məruz qalıb



*Noyabrın 3-də Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma keçməyə cəhd göstərib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb və o, ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcb*

Bax 6

## Vətən müharibəsi: Azərbaycan regionun geosiyasi mənzərəsini yeniləşdirir

*Müzəffər Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi ərazi bütövlüyünü təminetmə əməliyyatı və əldə etdiyi zəfərlər dünya miqyasında əks-səda yaradıb. Ekspertlər bu hadisəni müxtəlif aspektlərdə analiz etməyə...*



Bax 5

**Binəli Yıldırım: "Qarabağ Azərbaycanındır, Türkiyə hər zaman Azərbaycanın yanındadır"**



Bax 2

**Xocalı soyqırımının ən fəal iştirakçısı erməni polkovnik vuruldu**



Bax 11

**Qarabağda məğlubiyyət, ölkədə qiyam: erməni ictimai rəyi qan ağlayır**



Bax 7

# “Bu məktub, əslində, məğlubiyyətin etirafıdır”

*Özbəkistanın xəbər portalları Azərbaycan Prezidentinin Türkiyənin Xarici İşlər naziri ilə görüşü haqqında məqalələr yayımlayıb*

Özbəkistanın “kun.uz”, “zamin.uz” və “azon.uz” portalları öz səhifələrində Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşü haqqında özbək və rus dillərində məqalələr yerləşdirib.




AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının görüşdə cəbhədəki son vəziyyət barədə verdiyi məlumatlar, müharibənin ilk saatlarından başlayaraq Türkiyənin Azərbaycanın yanında olması ilə bağlı fikirləri məqalələrdə öz əksini tapıb.




Azərbaycan Prezidentinin çıxışından sitat gətirilən məqalələrdə deyilir: “Bu, bir daha göstərir biz bütün dövrlərdə - yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk. Bildiyiniz kimi, əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir”.

“azon.uz” və “zamin.uz” portalları yazır: “Azərbaycan Prezidenti görüşdə bildirib ki, bu yaxınlarda Ermənistanın baş naziri Rusiya Prezidenti cənab Putinə məktub göndərib. Bu məktub, əslində, məğlubiyyətin etirafıdır. Çünki Rusiyadan hərbi dəstək istənilib, halbuki, buna heç bir əsas yoxdur. Azərbaycan öz hərbi əməliyyatlarını beynəlxalq birlik tərəfindən tanınmış ərazisində keçirir”.

# Dövlət Bahçeli: Terrorçu dövlət olan Ermənistan yenə də dinc azərbaycanlı əhalini hədəfə alır

Azərbaycanın haqlı və inamlı mübarizəsi günbəgün müsbət nəticə verməkdədir. Dağlıq Qarabağ işğaldan sürətlə azad edilməkdədir. Terrorçu dövlət olan Ermənistan isə yenə də dinc azərbaycanlı əhaliyə qarşı raket hücumları həyata keçirir, qatil olduğunu bir daha göstərir.




AZƏRTAC xəbər verir ki, bu fikirləri Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bahçeli partiyanın Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında ifadə edib.

Azərbaycan Ordusunun bütün cəbhə boyu qəhrəmanlıq göstərdiyini diqqətə çatdıran (MHP) sədri Dövlət Bahçeli deyib: “Düşmən nə edirsə etsin, Dağlıq Qarabağ Azərbaycanın olacaqdır. Onların bütün cəhdləri qanunsuzdur. Azərbaycan terrorçuları sonadək qovacaq”.

Paşinyanın Rusiya Prezidentinə məktub yazdığını xatırladan partiya sədri vurğulayıb ki, Rusiya dövlət başçısının cavabında münaqişə bölgəsinin Ermənistan sərhədindən kənarda yerləşdiyini bildirməsi olduqca maraqlıdır. Prezident Putinin Dağlıq Qarabağ məsələsi ilə bağlı müzakirələrdə Türkiyənin də olmasına işarə etməsi isə digər mühüm məsələdir. PKK terrorçuları ilə yallı gedən Paşinyanın sonunun yaxınşadığını diqqətə çatdıran Milliyyətçi Hərəkat Partiyasının sədri bildirib ki, işğalçı ölkənin baş nazirinin də axırı terrorçular kimi, qaranlıqdır.

# Azərbaycan xalqının Vətən müharibəsi Misir mətbuatının diqqət mərkəzində

Misir mətbuatı Azərbaycan xalqının Vətən müharibəsi haqqında xəbərlər və videomateriallar yaymaqda davam edir. Ölkəmizin Misirdəki səfirliyi AZƏRTAC-ın materiallarına istinadla torpaqlarımızı düşmən tapdağından azad edən müzəffər Ordumuzun döyüş meydanında qazandığı qələbələr, ermənilərin dinc əhalini və mülki obyektləri hədəfə alması barədə yeni məlumatlar bu ölkənin, habelə ərəb dünyasının ictimaiyyətinə çatdırılır.




“Alvataneamag”, “Aldilomasy”, “Əl Vəsilə”, “”Rayetmisr”, “Elghad” informasiya portalları və “Asiaelyoum” xəbər agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsindən əsas məqamları işıqlandırıb.

“Akhbarelyoum” qəzetinin saytında oktyabrın 31-də Ermənistanın diversiya qrupunun əsgərlərimiz tərəfindən məhv edilməsi barədə xəbər və Azərbaycan Müdafiə Nazirliyinin yaydığı videomaterial yerləşdirilib. Həmçinin bu qəzetdə və nüfuzlu “Almasryalyoum” informasiya portalında Ermənistan tərəfindən Azərbaycanın şəhər və kəndlərinə məqsədli şəkildə edilən raket hücumları nəticəsində həlak olan vətəndaşlarımızın sayının 91-ə çatdığı, yaralananların sayının isə 400-dən çox olduğuna dair məlumatlar yayılıb.

Misirin “Gomhuriaonline” informasiya portalında isə Ermənistan silahlı qüvvələrinə məxsus “Su-25” təyyarəsinin zərərsizləşdirilməsi barədə Azərbaycan Müdafiə Nazirliyinin məlumatı dərc olunub.

# Binəli Yıldırım: “Qarabağ Azərbaycanındır, Türkiyə hər zaman Azərbaycanın yanındadır”



Bu gün Azərbaycana səfərimizi şəhidlərin məzarlarını ziyarət edərək yekunlaşdırırıq. Dünən görüşlərimiz oldu. Azərbaycan Prezidenti İlham Əliyev bizi qəbul etdi. Həmçinin Milli Məclisin Sədri, Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi ilə görüşdüm. Müxtəlif məsələləri müzakirə etdik. Məqsədimiz torpaqlarını işğaldan azad edən Azərbaycana dəstək olmaqdır. Eyni zamanda, azərbaycanlı qardaşlarımızla Türkiyə xalqının həmrəyliyini bir daha nümayiş etdirməkdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri noyabrın 3-də jurnalistlərə müsahibəsində Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırım qeyd edib deyib. Binəli Yıldırım qeyd edib ki, ulu öndər Heydər Əliyevin dediyi kimi, biz “bir millət, iki dövlətik”. Azərbaycanın dostu bizim dostumuz, düşməni də bizim düşmənimizdir. Bundan sonra da daim belə olacaq. Qarabağ Azərbaycanındır, Türkiyə hər zaman Azərbaycanın yanındadır.

# Fransanın “Liberation” qəzeti Ermənistanın qadağan olunmuş silahlardan istifadə etməsindən yazır

Fransanın “Liberation” qəzetində “Dağlıq Qarabağ: Ermənistan qadağan olunmuş silahlardan istifadə etməkdə ittiham olunur” adlı məqalə dərc edilib.




AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Azərbaycanın Bərdə şəhərini qadağan olunmuş kaset silahlarından atəşə tutmasının “Amnesty International” və “Human Rights Watch” təşkilatları tərəfindən təsdiqləndiyi qeyd edilib. Bildirilib ki, hər iki təşkilat Ermənistanın Bərdə şəhərini kasset silahları ilə bombardman etdiyini qeyd edib. Bombardman nəticəsində 21 mülki şəxsin öldüyü və 70-nin yaralandığı deyilib. Hər iki təşkilat hadisə yerindən olan şəkillərin Bərdədə “Smerç” raketi və onun 9N235 adlı kasset silahından istifadə olunduğunu təsdiqləyir.

Qeyd edilir ki, kaset silahları mini bombalar ixrac etdiyindən onun dəqiq hərbi hədəfi olmur və buna görə də mülki əhalinin həyatını təhlükəyə atmamaq üçün ondan şəhər mərkəzlərində istifadə etmək beynəlxalq müqavilə ilə qadağan olunur.

## Prezidentin köməkçisi: "Azərbaycan Ordusu düşməndən fərqli olaraq mülki insanları və obyektləri hədəfə almır"



Ermənistan öz cinayətlərini ört-basdır etmək üçün Azərbaycan Ordusunun tərkibində muzdluların, hansısa üçüncü ölkənin hərbçilərinin iştirak etməsi barədə yalanlar və fantaziyalar uydurur. Azərbaycanın muzdlulara ehtiyacı yoxdur. Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandanımızın tapşırığını layiqincə yerinə yetirir. AZƏRTAC xəbər verir ki, bunu noyabrın 3-də keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, əksinə, muzdlular Ermənistan silahlı qüvvələrinin tərkibində xidmət göstərir. Onlar işğal edilmiş ərazilərimizdə yerləşdirilib və Azərbaycan Silahlı Qüvvələrinə qarşı istifadə olunur. Onların əksəriyyətini erməni əsilli insanlar təşkil etsə də, aralarında digər etnik mənsubiyyəti olan insanlar da var.

Prezidentin köməkçisi qeyd edib ki, erməni terrorçular açıq şəkildə internet vasitəsilə müxtəlif ölkələrdən olan muzdluları Ermənistana cəlb edir və bunun müqabilində onlara maddi mükafat vəd edir.

Hikmət Hacıyev daha sonra qeyd edib ki, Azərbaycan Ordusu mülki insanları və obyektləri hədəfə almır, işğalçını sülhə məcburetmə əməliyyatı həyata keçirir. Prezidentin köməkçisi bildirib ki, Ermənistan Xankəndi və digər yaşayış məntəqələrində mülki obyektlərə zərbə endirilməsi barədə yalan məlumat yayır. "Biz mülki insanlarla müharibə aparmırıq, yalnız oradakı legitim hərbi hədəflərə zərbə endirilir. Azərbaycanda əsirlikdə olan erməni hərbçilər də hər hansı fiziki, psixoloji təzyiqlərdən kənardır. Biz bu sahədə üzərimizə düşən beynəlxalq öhdəliklərdən çıxış edirik. Azərbaycanla Ermənistan arasında olan əsas fərq də budur. Elə humanitar siyasətin nümunəsi olaraq bir müddət əvvəl Azərbaycanda olan 30 erməni hərbçisinin cəsədinin də Ermənistana verilməsi təmin olunub", - deyə Hikmət Hacıyev qeyd edib.

H.Hacıyev daha sonra qeyd edib ki, hərbi əməliyyatların tərkib hissələrindən biri də informasiya müharibəsidir. Sentyabrın 29-dan indiyədək Azərbaycan Prezidenti İlham Əliyev dünyanın aparıcı media qurumlarına çoxsaylı müsahibələr verib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi Prezident İlham Əliyevin bu fəaliyyətini imitasiya etmək istəyir, ancaq bu, əks təsir verir və onlar özlərinin işğalçılıq siyasətini ifşa edirlər. Hikmət Hacıyev bildirib ki, Azərbaycan Prezidentinə bu müsahibələrdə təxribatçı sualların verildiyini də görürük, ancaq dövlətimizin başçısı həmin suallara səbir və təmkinlə cavab verir.

Prezidentin köməkçisi deyib: "Təəssüf ki, beynəlxalq media qurumları ədalətli, obyektiv materiallar hazırlayanda erməni lobbisi tərəfindən təzyiq və təhdidlərlə üzləşirlər. Fransanın TF1 kanalı, ABŞ-ın "Nyu-York Times" qəzeti də belə təzyiqlərə məruz qalır. Azərbaycan belə halları qəti şəkildə qınayır. Jurnalistlərin hədələnməsi qəbuledilməzdir və beynəlxalq ictimaiyyəti erməni lobbisinin bu hərəkətlərinin qarşısını almağa çağırırıq".

## "Huffington Post": Ermənistan silahlı qüvvələri Azərbaycanda mülki vətəndaşları və məktəbləri hədəfə alır




Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən, əhalinin sıx məskunlaşdığı, eləcə də tarixi və mədəniyyət abidələri ilə zəngin olan Gəncə şəhəri, sənaye şəhəri Mingəçevir, Xızı, Abşeron, Ağdam, Ağcabədi, Goranboy, Bərdə, Beyləqan, Tərtər rayonları Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulub, nəticədə qadın və uşaqlarda daxil olmaqla, çox sayda mülki sakin həlak olub, evlər dağılıb. Erməni hərbçiləri Azərbaycanın əhalisinə və tarixi irsinə qarşı total müharibə aparır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın UNESCO yanında Daimi nümayəndəsi səlahiyyətlərini icra edən Ayaz Qocayevin "Huffington Post" portalında dərc olunmuş məqaləsində yer alıb.

Məqalədə Ermənistanın silahlı qüvvələri tərəfindən münaqişə zonasından uzaqda yerləşən mülki obyektlərin, mülki infrastrukturun raket atəşinə tutulmasından, məktəblərin, tarixi və mədəniyyət abidələrinin, yaşayış binalarının, fərdi evlərin dağıdılması haqqında məlumat verilib. A.Qocayev erməni silahlı qüvvələrinin müharibə cinayətlərini, o cümlədən Azərbaycanın mülki əhalisinin hədəfə alınmasını pisləyib. Qeyd edib ki, bununla Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, eləcə də beynəlxalq humanitar hüququ kobud şəkildə pozub. Diqqətə çatdırılıb ki, Qarabağ münaqişəsi ilə bağlı məlumatlarda qərəzliliyə yol verilməməlidir. İnsan hüquq müdafiəçiləri zərərçəkən Azərbaycan xalqının səsini eşitməli, qətlə yetirilən insanların yaxınlarına və yaralanan mülki şəxslərə, müharibə səbəbindən qaçqın çevrilən ailələrə dəstək və yardım göstərməlidirlər.

## Ermənistan terrorçulardan ibarət silahlı birləşmə yaradıb

Ermənistan vətəndaşı Vladimir Vartanov və başqaları bu ölkədən kənarda yaşayan vətəndaşlarla birlikdə "VoMa", yəni erməni dilində "Sağ qalmaq sənəti" adlı qanunsuz silahlı birləşmə yaradıb. Xezerxeber.az-ın məlumatına görə, müxtəlif millətlərin nümayəndələrinin də üzv olduqları birləşmə üzvlərinə terror təlimləri keçirilib. Hətta bu birləşmənin üzvləri işğal olunmuş ərazilərimizdə terrorçuluq əməlləri də törədib. Onların törətdiyi cinayət əməllərinə dair Dövlət Təhlükəsizliyi Xidmətindən daxil olmuş materiallar əsasında Baş Prokurorluğun İstintaq İdarəsində araşdırma aparılıb. Qeyd edək ki, bu birləşmənin Azərbaycanın dövlət sərhədini Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələri, "Dağlıq Qarabağ Respublikası" adı altında fəaliyyət göstərən qanunsuz rejimin dəstəklənməsi məqsədilə, Azərbaycanın dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri faktı da müəyyənləşdirilib.

Faktla bağlı Azərbaycanın Baş Prokurorluğu tərəfindən cinayət işi başlanıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib. Baş Prokurorluq beynəlxalq təşkilatları işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması üçün bütün lazımi tədbirlərin görülməsini təmin edir.

## Səfir: Qətər Dağlıq Qarabağ münaqişəsinin həllində dost və qardaş Azərbaycanın mövqeyini dəstəkləyir



Noyabrın 3-də Milli Məclisin Sədri Sahibə Qafarova Qətərin ölkəmizdəki səfiri Feysəl Bin Abdullah Əl-Hinzabla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, səfiri Milli Məclisdə görməyindən məmnun olduğunu söyləyən Sahibə Qafarova Azərbaycanın dost Qətər dövləti ilə müxtəlif sahələrdə əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayıb. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar və ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin möhkəm hüquqi bazasını təşkil edir. Qeyd olunub ki, bu günədək iki ölkə arasında 32 sənəd imzalanıb. Azərbaycan ilə Qətər arasında mövcud olan siyasi dialoq iqtisadi münasibətlərimizə də öz müsbət təsirini göstərir. Təkcə ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 2 milyard ABŞ dolları həcmində olub.

Milli Məclisin Sədri deyib ki, ölkələrimizin ali qanunvericilik orqanları arasında xoş münasibətlər mövcuddur. Bu gün Milli Məclisdə Qətərlə parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Deputatlarımız nüfuzlu beynəlxalq parlament təşkilatlarında fəal iştirak edir, mühüm məsələlərin müzakirəsində bir-birinə dəstəklərini əsirgəmirlər. Görüşdə Spiker Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açaraq, cəbhə bölgəsindəki mövcud durumdan danışıb. Sahibə Qafarova Azərbaycanın haqlı mübarizəsində ölkəmizə verdiyi dəstəyə görə Qətər dövlətinə və xalqına təşəkkürünü ifadə edib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Qətərin Azərbaycandakı səfiri Feysəl Bin Abdullah Əl-Hinzab ölkəsinin Qafqazın bu bölgəsinə böyük maraq göstərdiyini söyləyib. Bildirilib ki, yüksəksəviyyəli nümayəndə heyətlərinin səfərləri zamanı aparılan danışıqlar münasibətlərimizin daha da dərinləşməsi üçün yaxşı zəmin yaradıb. Qonaq parlamentlər səviyyəsində əməkdaşlığın daha da dərinləşdirilməsinin dostluq və strateji tərəfdaşlıq münasibətlərimizin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib.

## Anar Eyvazov: Ermənistanın Azərbaycanla dövlət sərhədindəki mövqelərimizi atəşə tutması ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir




Ötən sutka ərzində Ermənistanın Berd, Çəmbərək, Vardenis və Qafan rayonlarından Tovuz, Gədəbəy, Daşkəsən, Qubadlı və Zəngilanda yerləşən mövqelərimiz atəşkəs rejimini kobud şəkildə pozan düşmən tərəfindən atəşə tutulub. Ermənistanın, xüsusilə Azərbaycanla dövlət sərhədində yerləşən mövqelərimizi atıcı silahlar, top və minaatanlardan atəşə tutması təhrikedici mahiyyət daşımaqla ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 3-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi qeyd edib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Cəbhənin bir neçə istiqamətindəki mövqelərimizə, xüsusən azad edilmiş ərazilərə yenidən hücumlar edən düşmən şəxsi heyət və texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edilib. Sutka ərzində daimi dislokasiya məntəqəsində, səngərlərdə və atəş mövqelərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu, 2 ədəd sursatla dolu yük maşını və sursat anbarı, o cümlədən cəbhədə uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı məhv edilib.

"Əminliklə deyə bilərik ki, Azərbaycan Ordusunun döyüş taktikası ilə məqsədyönlü şəkildə bütün istiqamətlərdə sıxışdırılan düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilir, həmçinin xeyli sayda hərbi qənimət ələ keçirilir. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir", - deyə Anar Eyvazov vurğulayıb.

Mətbuat katibi bildirib ki, Ermənistan tərəfindən fərqli olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatını beynəlxalq humanitar hüquq norma və prinsiplərinə uyğun olaraq həyata keçirir. Düşmənin canlı qüvvəsi və legitim hərbi hədəfləri dəqiq atəş zərbələri ilə məhv edilir. Pərakəndə şəkildə fəaliyyət göstərən düşmənin döyüş meydanındakı vəziyyətdən xəbəri olmayan hərbi-siyasi rəhbərliyi hələ də uydurma məlumatlarla daxili auditoriyaya təsəlli verir. Bu yalanlarla aldadılaraq işğal altındakı ərazilərə gətirilən döyüşçülərin məhv edilmədən öncə həqiqəti dərk etmələri və silahı yerə qoyub könüllü şəkildə təslim olmağı onların sağ qalmaları üçün yeganə yoludur. Qələbə bizimlədir.

# Adil Əliyev: "Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi hələ də gec deyil"

***Əks-hücum əməliyyatlarının başlanmasından qısa bir müddət - bir ay keçməsinə baxmayaraq, Müzəffər Ali Baş Komandanın rəhbərliyində Azərbaycan Ordusu çox böyük qətiyyətlə irəliləyərək uzun illərdir düşmən tapdağında qalmış bir çox ərazilərimizi işğaldan azad etdi və bu istiqamətdə mübarizəsini müvəffəqiyyətlə davam etdirir.***

Dövlət tərəfindən uzun illərdir ordu quruculuğuna göstərilən diqqət və qayğı öz bəhrəsini verməkdədir. Bu gün Azərbaycan Ordusu beynəlxalq təşkilatların hesabatlarında dünyanın ən güclü orduları sırasında ilk 50-liyə daxildir. Ordumuz maddi-texniki təchizatı, şəxsi heyətinin komplektləşdirilməsi baxımından malik olduğunu üstünlüklər sayəsində qısa zaman kəsiyində Ermənistan ordusuna qarşı döyüşlərdə ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə tam qadir olduğunu bir daha nümayiş etdirdi. SİA xəbər verir ki, bunu açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev deyib.

Ermənistan tərəfindən işğal edilmiş ərazilər Şanlı Ordumuz tərəfindən ard-arda azad edilir və Qarabağa artıq yeni nəfəs gəlir. Hər bir azərbaycanlı bu gün qürurverici bir tarixə şahidlik edir. Belə möhtəşəm qələbələrin əldə edilməsi dövlət başçısı tərəfindən uzun illər ərzində sistemli şəkildə həyata keçirilən hərbi, siyasi, iqtisadi və geopolitik sahədə uğurlu idarəetmənin nəticəsidir. Biz hər gün Müdafiə Nazirliyinin paylaşdığı videogörüntüləri böyük maraqla izləyirik. Düşmənə məxsus olan texnikaların və şəxsi heyətin məhv



edilməsi və ya qənimət olaraq ələ keçirilməsi xalqımızda çox böyük ruh yüksəkliyi yaradır. Eyni zamanda da hamımızı düşünməyə vadar edir ki, məhv etdiyimiz və qənimət kimi götürdüyümüz sursatın dəyəri 2,7 milyard dollardan çoxdur. Ermənistan isə müflis ölkədir, heç bir gəlir qaynağı yoxdur, xarici borcu büdcəsindən azı 5 dəfə daha çoxdur, belə ki, büdcəsi 2 milyard dollardan azdır, xarici borcu isə 8 milyard dollardan çoxdur. Habelə, COVİD-19 xəstəliyinin Ermənistan ərazisində çox sürətli yayılması, iqtisadiyyata artıq qarşısı alınmaz zərbə vurub, belə olan halda bu qədər qiymətli silah Ermənistan da hardandır?

Ötən müddət ərzində üç dəfə humanitar atəşkəs elan olundu. Ermənistan hər dəfə bu atəşkəsi kobud şəkildə pozdu. İlk dəfə humanitar atəşkəsdən sonra Gəncə şəhərinin raket zərbələri ilə vurulması zamanı 10 nəfər dinc sakin şəhid oldu. Növbəti dəfə yenidən Gəncə şəhərinə düşmən hücumuna məruz qaldı. Sonuncu dəfə isə Bərdə rayonuna olan raket hücumu Ermənistanın əsl niyyətini bütün dünyaya göstərdi. Ermənistan tərəfi atəşkəsi hər dəfə pozmaqla bu istiqamətdə vasitəçi olan ölkələrə hörmətsizlik edir. Həmin münasibəti Ermənistan bu vaxta qədər BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməməklə də nümayiş etdirib.

Eyni zamanda, məlum qətnamələri qəbul edən, münaqişə ilə bağlı, o cümlədən atəşin dayandırılması istiqamətində təşəbbüslər irəli sürən dövlətlər də bu məsələyə laqeyd yanaşırlar. Hər addımda beynəlxalq hüququn tələblərini kobud şəkildə pozan, müharibə qanunlarını tanımayan bir ölkəni durdurmaq üçün heç bir səy göstərmirlər. Dəfələrlə deyilib ki, Ermənistan baş nazirinin göstərişi ilə Livandan, Suriyadan ailələr gətirilib və qeyri-qanuni olaraq Qarabağa yerləşdirilir. Lakin buna qarşı heç bir tədbir görülmür. Əksinə, baş nazir bu cəzasızlıq mühitindən sui-istifadə edərək Şuşada inauqurasiya mərasimi keçirib. Bundan başqa, "Dağlıq Qarabağ parlamenti"nin Xankəndidən Şuşaya köçürülməsi və digər təxribatlar törədir.

BTM Təhlükəsizlik Şurasının məlum qətnamələri icra etmədiyinə görə Ermənistana qarşı ciddi sanksiyalar tətbiq etmək hüququ var idi, bu sanksiyaların effektliyini İraqın nümunəsində görmüşdük. Lakin, nədənsə Ermənistanın bu aqressiv davranışının qarşısını almağa heç kəs cəhd etmir. Belə olan halda isə işğalçı dövlətin cəzalandırılması missiyası və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək vəzifəsi Rəşadətli Ordumuzun üzərinə düşdü.

Bu, bir həqiqətdir ki, Ermənistanın təcavüzkar əməlləri təkcə regiona yox, eyni zamanda, bütün dünyaya təhdiddir. Regionda baş verən bütün konfliktlərin yaradıcısı Ermənistandır. Ermənistanın hazırkı siyasi rəhbərliyi öz xələfləri kimi cinayətkardır və işğalçılıq siyasətini yürütməkdə davam edir. Mülki əhalini hədəf alaraq, beynəlxalq hüququn tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyasının normalarını kobud şəkildə pozur.

Ermənistanın mülki Azərbaycan əhalisini hədəfə alması, Gəncə və Bərdə şəhərlərində eləcə də digər rayon və şəhərlərimizdə mülki vətəndaşlarımıza raket zərbələri endirməsi, nəticədə içərisində uşaqlar və qadınlar olan insanlarımızın ölməsi heç cür qəbul edilən deyil. Baxmayaraq ki, insan hüquqları sahəsində ixtisaslaşmış təşkilatlar hazırda mülki vətəndaşlarımızın ölümünə heç bir reaksiya vermir. "Amnesty International" və "Human Rights Watch" təşkilatlarının Ermənistan silahlı qüvvələrinin Bərdəyə qadağan olunmuş kasetli raketlərlə zərbələr endirməsini sanki görməzdən gəlir, bu təşkilatların hansısa maraqlara xidmət etdiyini artıq heç kəs inkar etmir.

Hazırda Türkiyə, İran, Rusiya və Azərbaycan arasında həm çoxtərəfli, həm də ikitərəfli formatlarda fəal əməkdaşlıq imkanları yaranıb. Bu, iqtisadi, nəqliyyat, geosiyasi sahədə, habelə regionda təhlükəsizliyin möhkəmləndirilməsi baxımından olduqca önəmlidir. Lakin Ermənistan öz işğalçılıq siyasətini davam etdirərək, təxribatlar törədərək buna mane olmağa çalışır.

Bu gün Azərbaycan xalqı ilə yanaşı, bütün sülhsevər dünya ictimaiyyəti ədalətin bərqərar olunacağını - Ermənistan təcavüzünə tezliklə son qoyulacağı, Azərbaycanın tarixi torpaqlarının azad ediləcəyi, ərazi bütövlüyümüzün bərpa olunacağı günü gözləyir. Azərbaycan həmişə müxtəlif xalqların, millətlərin və dinlərin birgə yaşadığı, multikultural dəyərləri yüksək qiymətləndirən tolerant bir ölkə kimi tanınıb. Multukulturalizm Azərbaycanda dövlət siyasəti səviyyəsində aparılıb. Bu da onu deməyə əsas verir ki, gələcəkdə Qarabağda xalqımızla yanaşı başqa millətlərin nümayəndələrinin də yaşaması üçün heç bir məhdudiyyət olmayacaq. Məlumdur ki, erməni xalqı Azərbaycan torpaqlarına Gülüstan və Türkmənçay müqavilələrinin imzalanmasından sonra köçürülməyə başlayıb və həmin ərazidə yaşamaları son 200 ili əhatə edir. Onlar yenidən xalqımızla mehriban şəraitdə yaşamaq istəsələr bunun üçün bütün şərait yaradılacaq. Artıq işğaldan azad edilmiş ərazilərdə xüsusi idarəetmənin formalaşdırılması, vətəndaşlarımızın öz tarixi torpaqlarına geri qayıtması, Dağlıq Qarabağı bərpa edərək onu yer üzündə ən gözəl və həyat üçün rahat guşələrdən birinə çevirmək dövlətimizin müqəddəs amalıdır.

***Aysel Məmmədova***

# Ukraynalı ekspert: Azərbaycanın parlaq hərbi taktika və strategiyası xalqı tam və qəti qələbəyə doğru aparır



Hazırda geosiyasi vəziyyət tamamilə Bakının xeyrinədir. Azərbaycanın parlaq hərbi taktika və strategiyası xalqı tam və qəti qələbəyə doğru aparır! Ukrayna Politoloqlar Assosiasiyasının eksperti Rinat Kovbasyuk bu fikirləri AZƏRTAC-a eksklüziv müsahibəsində söyləyib.

O qeyd edib ki, Azərbaycan Ordusu sürətlə modernləşir, ordunun şəxsi heyətinin döyüş ruhu çox yüksəkdir, Azərbaycan xalqı həmişəkindən daha sıx birləşib, buna görə qələbə yaxındır!

R.Kovbasyuk daha sonra deyib: "Azərbaycan şəhərlərinin dinc sakinlərinin atəşə tutulması bütün beynəlxalq konvensiyaların hiddətləndirici şəkildə pozulmasıdır. Həlak olanlar arasında uşaqların və yaşlı insanların olması şok doğurur. Belə dəhşətli insidentlər cəzasız qalmamalıdır, erməni işğalçılar buna görə cavab verməlidirlər. Əlbəttə, bu mürəkkəb məsələnin bir hissəsini müzəffər Azərbaycan Ordusu görəcək, lakin beynəlxalq birlik dərhal bu məsələyə münasibət bildirməlidir. O, Ermənistan hakimiyyət orqanlarının cinayətkar əməllərini sadəcə pisləməklə kifayətlənməyib, konkret tədbirlər görməlidir ki, cinayətkarlar cəzalandırılsın. Axı yaxın günlərdə sənin balaca qızını qətlə yetirmiş canini sülh danışıqlarına çağırmağın nə mənası var! Mən əslində, heç nəyi həll etməyən növbəti qətnamələr qəbul etməklə kifayətlənən, bununla da Ermənistanın cinayətkar fəaliyyətini davam etdirməsinə şərait yaradan insanların üzünü görmək, onların gözlərinin içinə baxmaq istərdim".

Ukraynalı ekspertin fikrincə, indiki məqamda Azərbaycan xalqı daha sıx birləşməli, başa düşməlidir ki, erməni işğalçıların Azərbaycan əhalisi arasında panika yaratmaq üçün göstərdiyi bütün iyrənc cəhdlərin məqsədi Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlarından diqqəti yayındırmaq, ölkədə ictimai-siyasi sabitliyi pozmaqdır. R.Kolbasyuk deyib: "Lakin ermənilərin belə cəhdləri nəinki baş tutmayıb, əksinə, Azərbaycan xalqını daha sıx birləşdirib və Ermənistanın bu cür mənfur əməlləri azərbaycanlıların öz ölkələrinin gələcəyinə inamını zəiflədə bilməz!"

# "The Budapest Times" nəşrində Qarabağda gedən hərbi əməliyyatlardan bəhs edən məqalə dərc olunub

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) şöbə müdiri Cavid Vəliyevin Macarıstanın nüfuzlu ingilisdilli nəşri "The Budapest Times"da "Cənubi Qafqazda döyüşləri nə dayandıra bilər?" sərlövhəli məqaləsi dərc olunub. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Məqalədə Qarabağda gedən müharibənin başlamasına Minsk qrupunun 27 illik uğursuz vasitəçiliyi və Ermənistanın baş naziri Nikol Paşinyanın təxribatçı addımlarının səbəb olduğu vurğulanıb.

Qeyd edilib ki, sentyabrın 27-də başlayan döyüşlər müddətində 3 dəfə humanitar atəşkəs elan olunmasına baxmayaraq, hər üç halda Ermənistan tərəfi buna riayət etməyib. Müəllif Ermənistanın atəşkəsi pozması, Gəncə və Bərdəyə raket hücumları nəticəsində mülki əhalinin həlak olduğunu vurğulayıb.

Son döyüşlər zamanı Ermənistanın beynəlxalq təcrid vəziyyətində olduğunu bildirən müəllif qeyd edib ki, bu, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi "hücum diplomatiyası"ndan və ölkəmizin beynəlxalq hüquqa görə ədalətli mövqeyindən irəli gəlib. Bu döyüşlərdə Ermənistanın ən çox dəstək gözlədiyi müttəfiqi Rusiyadan və üzvü olduğu KTMT-dan da yetərli dəstək görmədiyi vurğulanıb.

Məqalədə Azərbaycan tərəfdən guya suriyalı muzdluların döyüşməsi məsələsinə də toxunulub. Bildirilib ki, Ermənistanın bununla bağlı təqdim etdiyi videoların Dağlıq Qarabağa heç bir aidiyyəti yoxdur. Sonda bildirilib ki, Cənubi Qafqazda uzunmüddətli atəşkəsə yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasından sonra nail olmaq mümkündür. Döyüşlərin dayandırılması üçün Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və digər beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq Azərbaycanın işğal altındakı torpaqlarından çıxmalıdır.

## Eduard Şarmazanov: "Paşinyan başını itirib, əvvəl bir söz deyir, sonra da onun əksini"



"Diplomatik strategiyanın konkret hədəfləri olmalıdır. Ermənistanda isə, bunun əvəzinə hökumət səhər bir söz, günorta başqa söz, axşam isə deyilənləri təkzib edən tamamilə ayrı bir söz deyir." SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Ermənistan parlamentinin keçmiş vitse-spikeri Eduard Şarmazanov deyib. Keçmiş vitse-spiker Paşinyan hakimiyyətinin qətiyyət nümayiş etdirmədiyini açıq şəkildə deyib. "Əvvəl deyirdilər ki, sülhməramlılar məsələsi bizim gündəmimizdə yoxdur. Sonra sülhməramlıların xeyrinə fikirlər səsləndirməyə başladılar. Əvvəl Dağlıq Qarabağla hərbi alyansdan bəhs etdikləri halda, sonra Ermənistanın Qarabağı tanımasından, daha sonra xilas adına bölünmədən, daha sonra isə birləşmə adına ayrılmadan danışdılar. Paşinyan hətta bir qədər sonra cəmiyyətin ağrılı kompromisə hazır olduğunu da elan etdi və ən sonunda da bunu beynəlxalq aləm üçün dediyini, sona qədər gedəcəyini söylədi. Əvvəl deyirdilər ki, bir qarış torpaq verməyəcəyik. Bu günlərdə isə Araik Arutyunyan erməniləri Şuşanın müdafiəsinə çağırdı", deyə Eduard Şarmazanov bildirib.

***İnam Hacıyev***

# Vətən müharibəsi: Azərbaycan regionun geosiyasi mənzərəsini yeniləşdirir

*Sonun başlanğıcı: təcavüzkarın cəzalandırılması və havadarları*

***Müzəffər Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi ərazi bütövlüyünü təminetmə əməliyyatı və əldə etdiyi zəfərlər dünya miqyasında əks-səda yaradıb. Ekspertlər bu hadisəni müxtəlif aspektlərdə analiz etməyə çalışırlar. Onlar birmənalı olaraq Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrindən qat-qat güclü olduğunu qəbul edirlər. Hətta Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Ovanisyan bildirib ki, Azərbaycan yüksək texnologiyalara əsaslanan silahlara malikdir ki, bu cür hazırlıq supergüclərin ordusunda ola bilər. O, ayrıca vurğulayıb ki, elə sahələr var ki, Azərbaycan Ordusu Ermənistan ordusundan 12 dəfə güclüdür!***

Əlbəttə, burada təəccüblü bir məqam yoxdur. Çünki Azərbaycan müstəqil dövlətdir və öz potensialı hesabına illərdir ki, Ordusunu gücləndirir. Azərbaycan Ordusu hazırda regionun ən güclüsüdür. Özü də yalnız texniki təchizat aspektində deyil, Ordunun təşkilində, çevikliyində və peşəkarlığında da Cənubi Qafqazda ona tay yoxdur. Bütün bunlar dünya ekspertləri qarşısında maraqlı mənzərəni ortaya çıxarır.

Aydın olur ki, dünya üçün əhəmiyyəti böyük olan bir regionda iki xristian ölkəsindən bir müsəlman dövləti daha güclüdür. Avtomatik olaraq bu, burada aparıcı rolu məhz müsəlman ölkəsinin oynamalı olduğu qənaətini yaradır. Bu isə təbii ki, supergücləri qane etmir. Təcrübə göstərir ki, onlar ikili standartlara uyğun davranaraq dini təəssübkeşlik edir, islamofobiya və türkofobiyaya uğrayırlar. Həmin məqam istər-istəməz Azərbaycanın hərbi-siyasi və diplomatik uğurlarına qısqanclıq yaradır.

Onun əlaməti kimi ATƏT-in Minsk qrupunun həmsədrlərinin hələ də Ermənistandan "işğal etdiyin əraziləri tərk et" kimi konkret tələbinin olmamasını göstərmək olar. Bunun əvəzində gah Azərbaycanı tənqid edirlər, gah da ümumi "barışın" deyirlər. Əlavə olaraq Ermənistanı aktiv surətdə silahlandırırlar. Azərbaycanın təqdim etdiyi sənədlərdə Rusiyanın, İslandiyanın, Belçikanın, ABŞ-ın müxtəlif şəhərlərindən Ermənistana qaçaq yollarla mülki təyyarələrdə daşınan silahların dəqiq siyahısı mövcuddur. Ancaq, qəribədir ki, sanki Azərbaycanın təqdim etdiyi dəlillərə reaksiya yoxdur, onları görməzdən gəlib, yenə də rəsmi İrəvana təzyiq etmirlər. Başqa vaxtı silah qaçaqçılığı ilə bağlı qulaq batıran dairələr indi lal qalıblar. Ermənistandan və silahı ona qanunsuz satanlardan hesab tələb edən gözə dəymir.

Bunların fonunda geosiyasət meydanında baş verən hadisələrlə bağlı nələrin müşahidə edildiyi çox maraqlıdır. Belə təəssürat yaranır ki, həmsədr ölkələr də daxil olmaqla Avropa və Amerika Ermənistanı məğlubiyyətdən xilas etmək üçün dəridən-qabıqdan çıxırlar. Onlar sözdə bitərəflikdən danışırlar, əməldə isə Ermənistana yardım göstərirlər. Bəzi hallarda isə çox gülünc iddialar irəli sürürlər.

ABŞ-ın Dövlət katibi Mayk Pompeo deyib ki, Ermənistanın Dağlıq Qarabağda Azərbaycanın qarşısını alacağına ümid edirlər. Avropanın bir neçə ölkəsinin deputatları Xankəndiyə qanunsuz səfər edərək separatçı və terrorçuları dəstəkləyiblər. Rusiya Dövlət Dumasının üzvü Vitali Milonov da Xankəndiyə gedib təxribatçı bəyanatlar verib. Fransa Prezidentinin isə münasibəti çoxdan məlumdur.

## Geosiyasi kontekst: Cənubi Qafqazda yeni qüvvələr nisbətinə doğru

Bunlar onu göstərir ki, həmsədrlər də daxil olmaqla Avropa, Amerika və Rusiya hələ də ədalətli mövqeyə gəlməyiblər. Doğrudur, onların sırasında özünün daha çox bitərəf mövqeyi ilə seçilən ölkə Rusiyadır. Moskva Ermənistanla Azərbaycan arasında humanitar atəşkəsə nail olmaq istədi, lakin ermənilər onu pozdular. Belə görünür ki, Ermənistan rəhbərliyi ədalətli həlli deyil, təcavüzkarı qane edən həll yolunu arzulayır. Bunun üçün böyük dövlətlərin bu haqsızlığı dəstəkləyəcəklərinə ümid edirlər.



Təsadüfi deyildir ki, rəsmi İrəvan ortaya elə cəfəng və gülünc iddialar atır ki, hətta havadarları belə qəbul edə bilmirlər. Məsələn, Nikol Paşinyan deyir ki, Rusiya Dağlıq Qarabağda Azərbaycana qarşı antiterror əməliyyatı aparmalıdır. İşğalçı ərazi sahibinə qarşı öz torpaqlarını azad etmək uğrunda savaşdığına görə antiterror əməliyyatı tələb edirsə, bu, onun tam xəstə olmasının əlamətidir. Əlbəttə, Moskva bu absurd işə gedə bilməz.



Yaxud Ermənistan prezidenti Armen Sarkisyan NATO-dan Türkiyəyə təzyiq etməsini istəyib. Nəyə görə? Ona görə ki, Türkiyə Azərbaycana mənəvi dəstək verir? NATO-da da ona "get, ağlını başına topla" deyiblər. Bununla da Ermənistanın Rusiya ilə Qərb arasında "diplomatik manevrləri"nin tam iflasa uğradığını ekspertlər vurğulayırlar.

Azərbaycan isə uğurlarını artırmaqda davam edir. Hərb meydanında erməni işğalçılarının tarixi ərazilərimizdən qovulması prosesi sürətlə gedir. Hər gün düşmənə sarsıdıcı zərbələr endirilir. Eyni zamanda, siyasi-diplomatik aspektdə də Azərbaycanın və Türkiyənin fəallığı azalmır. Azərbaycan dünyaya real vəziyyəti hər an çatdırır. Mülki yaşayış məntəqələrinə raket hücumlarının törətdiyi fəsadlarla yerində tanış olmaq üçün xarici ölkələrin diplomatik nümayəndələri və hərbi attaşeləri hadisə yerinə aparılır. Vəziyyəti öz gözləri ilə görən xarici diplomatlar erməni vəhşiliyinin əyani şahidi olurlar.



Digər tərəfdən, Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlarda əsl vəziyyəti izah etməkdədirlər. Artıq bütün beynəlxalq təşkilatlar Ermənistanı qınayan bəyanatlar veriblər. Ondan işğal etdiyi ərazilərdən çıxmasını tələb edirlər.

Azərbaycanın siyasi-diplomatik fəallığı və uğurlu informasiya siyasəti nəticəsində bir sıra dövlətlər Bakını dəstəkləyən qətiyyətli mövqe nümayiş etdiriblər. Bu sırada Pakistan, Ukrayna, Gürcüstan, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Əfqanıstanı göstərmək olar. Onlar bu və ya digər dərəcədə Azərbaycanın haqlı mövqeyini dəstəkləyiblər. Eyni zamanda, konkret və praktiki addımlar atan ölkələr də vardır. Türkiyə-Ukrayna münasibətlərini həmin sıraya daxil etmək olar.

Ukrayna Prezidenti Vladimir Zelenskinin Ankaraya səfəri geniş əks-səda doğurub. Çünki tərəflər geosiyasi və strateji əhəmiyyəti olan sənədlər imzalayıblar. Türkiyə tərəfi Ukraynaya ərazi bütövlüyünü təmin etməkdə yardımçı olacağını ifadə edib. Ankara bir daha vurğulayıb ki, Krımın işğalını qəbul etmir. Donbasda münaqişənin həll edilməsini vacib sayır. Bunlardan başqa, Türkiyə və Ukrayna hərbi sahədə geniş əməkdaşlıq haqqında razılığa gəliblər. Onlar bir neçə ortaq hərbi layihələr üzərində işləyirlər. Nəhayət, Türkiyə və Ukrayna azad ticarət zonası yaratmaq üzərində işləri sürətləndirməyi qərara alıblar.

Bütün bunlardan ekspertlər çox maraqlı geosiyasi qənaət əldə edirlər. Onlar təsdiqləyirlər ki, Azərbaycan Ordusunun Qarabağda apardığı döyüş əməliyyatları bütövlükdə postsovet məkanında separatizmə qarşı səmərəli mübarizənin fəlsəfəsini yaratdı. Azərbaycanın bu təcrübəsindən istifadə edərək, digər münaqişələri də həll etmək mümkündür. Əlbəttə, bizim üçün çox əhəmiyyətli qənaətdir. Çünki söhbət faktiki olaraq Azərbaycanın geosiyasi rolunun yüksəlməsindən gedir. Bu bağlılıqda Azərbaycan regional təhlükəsizlik sisteminin formalaşdırılması üçün də faydalı arqumentləri ortaya qoymuş olur.

Daha geniş geosiyasi kontekstdə isə Türkiyə-Azərbaycan birliyinin Cənubi Qafqazda geosiyasi sabitliyi təmin edən gücə çevrildiyi nəticəsini çıxara bilərik. Artıq bu barədə real fakt kimi danışmaq olar. İki qardaş ölkə postsovet məkanında və bütövlükdə Avrasiya regionunda təsirli qüvvə olaraq özünü təsdiq etməkdədir. Təbii ki, əsasını Ulu öndər Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən yüksək peşəkarlıqla inkişaf etdirilən xarici siyasət kursu burada başlıca məqamı təşkil edir. Həmin siyasi kursun bəhrələrini dövlətimiz və cəmiyyətimiz yüksək qiymətləndirir. Azərbaycan bütün dünyaya öz ədalətini və gücünü göstərdi. Özü də elə bir səviyyədə ki, geniş bir geosiyasi məkanda ümumi mənzərə dəyişməkdədir.

***Kamal Adıgözəlov***
***Newtimes.az***

# AMEA-nın şöbə müdiri Fransa prezidentinə açıq məktub ünvanlayıb



***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Fəlsəfə və sosiologiya institutunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent, Sorbona və Sofiya-Antipolis Universitetlərinin fəxri professoru Zöhrə Əliyeva Fransa prezidenti Emmanuel Makrona açıq məktub ünvanlayıb.***

SİA öz oxucularına məktubu olduğu kimi təqdim edir:

*Cənab Prezident!*

29 oktyabr tarixində Nitsa şəhərində baş vermiş hücum nəticəsində 3 nəfərin həlak olması ilə əlaqədar cümlə fransız xalqına yaşadıgımkədər hissini ifadə edirəm. Bukədər hissi Xocalı soyqırımını yaşamış biz azərbaycanlılara cox yaxından tanışdır.

Bu gün azərbaycan ordusu30 il öncə Ermənistan tərəfindən zəbt edilmişərazilərini oyuncaq DQR quldurlarından üz-üzə, döyüş meydanında azad etməkdə ikən, Ermənistan ərazisindən xaincəsinə atılan agır döyüş mərmiləri, cəbhə xəttindən xeyli kənarda yerləşən və heç bir hərbi infrastrukturun yer almadıgı Gəncə, Bərdə, Tərtər və digər Azərbaycan ərazilərində xeyli sayda insan tələfətına və çoxsalı dagıntılara səbəb olmuşdur.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin sədri Pyer Alan Fridez mülki bölgələrə raket zərbələrini dayandırmağa çağırış edərək "Mülki bölgələrə raket zərbələri dayandırılmalıdır. Azərbaycan şəhəri Bərdəyə zərbələrin endirilməsi, 21 nəfərin həlak olması fəlakətdir" deyəbildirmişdir.

Cənab Makron, siz Nitsada baş vermiş hadisəyə "islam terrorizmi" adı vermisiniz. Eləisə həmsədri oldugunuz ATƏT-in adından, Azərbaycanın dinc əhalisini, qadınları, məktəbli uşaqları hədəfə götürmüş və qətlə yetirmiş,Hitlerin faşist rejiminə nökərçilik etmiş Njdeyə heykəl ucaltmış bu günkü erməni faşizminədə mühasib bir ad qoymagınız ədalətli olardı.

Sizin "Fransa müsəlman dövlətləri ilə mübahisədə öz dəyərlərindən əl çəkməyəcəkdir" şüarınızdan sonra, məhkəmə qərarı iləParisin ətrafında yerləşən "Panten" məscidi "ekstremist baxışları yaymaqda və fransız müəllim Samuel Patinin qətlinə gətirib çıxaran mövqeləri himayə etmək"də ittiham edilərək qapadılmışdır.

XVIII əsrdə, fransız maarifçiliyi dövründə, Avropa dedikdə hər kəs Parisi, Volterin, Russonun, Didronun, Dümanın dünyaya tanıtdıgı Fransanıdüşünürdü.

Azərbaycan inteligensiyasının görkəmli nümayəndələri, Şahtaxtinski, Hacinski, Abbas Səhhət, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Agayev və digərləri Fransada yaşamış və orada təhsil almışlar.Böyük dramaturq M.F.Axundzadə"Azərbaycan Molyeri" adlandırılmışdır, onun əsərləri fransız dilində, fransanın teatr səhnələrində dəfələrlə nümayiş etdirilmişdir.1920-ci ilin yanvar ayında keçirilən Paris sülh konfransındaAzərbaycan Demokratik Respublikasını, Daglıq Qarabagın da daxil oldugu sərhədləri daxilində, İngiltərə və ABŞ ilə yanaşı tanıyan ilk üç dövlətdən birincisi Klemonsonun rəhbərlik etdiyi Fransa hökuməti olmuşdur.

Azərbaycanda tarixən İslam dini ilə yanaşı digər dinlərə qarşı da həmişə diqqət və qayğı mövsud olmuşdur. Digər dinlərə hörmətlə yanaşmaq bizim mədəniyyətimizin qayəsidir. Tarixən Azərbaycanda dini icmalar - müsəlman məscidləri, pravoslav, katolik, alban kilsələri, yəhudi sinaqoqları fəaliyyət göstərmişlər və bu gün də öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirməkdədirlər. Azərbaycan Prezidentin müvafiq fərmanı 2014-cü ildə ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Ölkədə son illər keçirilmiş Dünya Dini Liderlərinin konfransları, "Bakı prosesi" adlanan Multikulturalizm forumları mövcud olan tolerantlıq mühitinin bariz nümunələridir.

Müsəlmanlar, İslamın erkən çağlarından etibarən fərqli dinlərə mənsub insanlarla bir arada yaşama təcrübəsinə sahib olmuşlar. İslamın müqəddəs kitabı "Qurani-Kərim"in açıq-aşkar dilə gətirdiyi "Dində məcburiyyət yoxdur" hökmü, başqa dinlərə mənsub olan insanlarla münasibətlərin sülh çərçivəsində həyata keçməsinə zəmin yaratmışdır.

Cənab Prezident!

Nitsada baş vermiş faciənin əsası Şarlı_Ebdoda qoyulmuşdur. Avropa liderləri ilə qol-qola girərək, "Hamımız Şarli Ebdoyuq" nümayişi keçirməkdənsə, İslam dünyasının müqəddəsi, Peygəmbər əfəndimiz Məhəmməd əleyhissəlama (s.ə.s) eybəcər karikaturalar tirajlayan kəslərə vaxtında bu sayaq hərəkətlərin yolverilməzliyi anladılsaydı, bu hərəkətlərin xalqlar və dinlər arasındakı münasibətlərə xələl gətirdiyi bildirilsəydi günümüzdə yaşanan Nitsa faciəsi baş verməzdi.

Cənab President! 2016-cı ildə, Bakıda yerləşən Fransa səfirliyində, mən Fransa dövlətinin "Akademik Palmalar" ordeni ilə təltif edilmişəm. Mən bu şərəfə fransız mədəniyyətini, fransız dilini, fransız maarifçilərini öz həmvətənlərimə yaxından tanıtdıgıma və təblig etdiyimə görə layiq görülmüşəm.

Mənə ordeni Siz verməmisiniz, bu fransız xalqının əməyimə verdiyi qiymətdir.Lakin, Liviyada, ATƏT-in Minsk qrupunun tərkibindəvə dogu Akdənizdəyürütdüyünüz yarıtmaz, millətçi, davakar və antiislam siyasəti mənə həmin ordendən imtina etmək fikri aşılayır.

Sizin bu gün yürütdüyünüz antiislam siyasəti məni fransızları, fransız xalqını sevməkdən heç bir vəchlə daşındıra bilməz. Hər bir insan kimi Siz də müvəqqətisiniz, faşist rejimi ilə əməkdaşlıq etmiş Peten kimi, hazırda prezidentlik fəaliyyəti Fransa məhkəməsində araşdırılan Sarkozi kimi, fəqət Azərbaycan - Fransa xalqlarının dostlugu zaman fövqündədir.

İki böyük xalq arasındakı mədəni dostluq əlaqələri, zaman-zaman cılız siyasətçilərin təcavüzünə məruz qalsa da heç nə itirməz, sarsılmaz, əksinə bu sayaq sınaqlardan daha güclü çıxar.

***Dr. Zöhrə Əliyeva***

## Düşmən ağır itkilərə məruz qalıb

***Noyabrın 3-də Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma keçməyə cəhd göstərib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb və o, ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.



# YAP Səbail rayon təşkilatı "Əsgərə məktub!" layihəsinə qoşuldu



YAP Səbail rayon təşkilatının gəncləri "ASAN Könüllüləri" Təşkilatının "Əsgərə məktub!" layihəsinə qoşularaq bugünlərdə hərb tariximizin ən şərəfli səhifələrini yazan Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman əsgər və zabitlərinə məktublar ünvanladılar. SİA-nın verdiyi məlumata görə, gənclər məktublarında, qanları və canları ilə müqəddəs Vətən torpağını mənfur düşmən tapdağından azad edən və Azərbaycan xalqına şanlı qələbələr bəxş edən rəşadətli əsgərlərimizə dualarını, səmimi ürək sözlərini, dəstək ismarıclarını ünvanladılar.

Azərbaycan Silahlı Qüvvələrinin Qarabağın azadlığı uğrunda apardıqları mübarizədə mənəvi dəstək önəmlidir. Bugünlərdə Azərbaycan xalqı bir yumruq olaraq Ali Baş Komandanımız, Ordumuz ilə milli birlik, həmrəylik nümayiş etdirir.

YAP Səbail rayon təşkilatının bütün üzvləri bu milli həmrəylik hərəkatında yaxından iştirak edir. YAP gəncləri dəfələrlə cəbhə bölgəsində olmuş və qəhrəman əsgərlərimizlə görüşmüşlər. Allah Azərbaycan Ordusunu qorusun. Qələbə bizimdir və Qarabağ Azərbaycandır!!!

# Müdafiə Nazirliyi: Ermənistan Müdafiə Nazirliyi yenə də yalan uydurur

Ermənistan Müdafiə Nazirliyi ictimaiyyəti yanlış məlumatlandırmaqda davam edir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan tərəfinin erməni mövqeləri istiqamətində artilleriya zərbələri endirməsi nəticəsində guya bir neçə mərminin İran ərazisinə düşməsi barədə xəbər "boş patronla havaya güllə atmaq" kimidir.

Birincisi, döyüş əməliyyatları çoxdan sərhəddən şimal istiqamətində və İran ərazilərindən xeyli uzaqlıqda aparılır. İkincisi, nəzərə alsaq ki, Azərbaycan Ordusu döyüş əməliyyatlarını şimal istiqamətində keçirir, yəni İranla həmsərhəd ərazilərdən işğal altındakı ərazilərin dərinliyinə doğru, hətta nəzəri cəhətdən belə bölmələrimizin atdığı mərmilər İran ərazisinə heç cür düşə bilməz. Göründüyü kimi, Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi məlumat mətnini yenidən səhv salıb.

# Vüqar Rəhimzadə: "İşğalçı Ermənistanın təhdid siyasəti cəzasız qalmamalıdır"



"Söz və mətbuat azadlığı demokratik dünyanın ümdə bir dəyərdir. Bu dəyərlərin qorunması üçün dünyanın aparıcı dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları müxtəlif səviyyələrdə tədbirlər görürlər. Lakin hansısa səbəbdən bəzi hallarda bu dəyərlərin qorunmasına əhəmiyyət verilmir. Xüsusilə də Ermənistan kimi faşist ideologiyasına xidmət edən terrorçu dövlətin söz və mətbuat azadlığına qarşı fiziki məhvetmə hədələrinə susqunluqla yanaşılır. Ermənistan və onun dəstəklədiyi ASALA erməni terror təşkilatı informasiya müharibəsi müstəvisində ən iyrənc, qeyri-siyasi və qeyri-insani formalarda addımlar atmaqdadırlar". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, bu gün sivil dünyanın başağrısına çevrilmiş Ermənistan terrorçu mahiyyətinə uyğun olaraq Azərbaycana qarşı təcavüzkar siyasətinin bütün həqiqətlərini beynəlxalq aləmdən gizlətmək üçün hər cür alçaq və iyrənc yola əl atır: "Son həftələrdə erməni lobbisinin və diasporunun təşkilatçılığı ilə Fransada "TF1" televiziyasının müxbirinə və Amerikada "Nyu-York Tayms" qəzetinin əməkdaşına qarşı təhdid, təzyiq və təqiblər amansız xarakter alıb. Səbəb isə odur ki, ABŞ və Fransanın sözügedən media qurumları erməniləin törətdikləri cinayətlərə obyektiv və ədalətli mövqe sərgiləyiblər. Görünür, radikal erməni terror qruplaşmaları, əslində isə işğalçı Ermənistan dövləti həqiqətlərin dünya ictimaiyyətinə açıqlanmasında maraqlı deyil. Bununla da Ermənistan sübut edir ki, heç bir beynəlxalq hüquq və media azadlığı normalarına hörmət etmir və o, öz faşist mahiyyəti ilə bütün ölkələr üçün təhlükə mənbəyinə çevrilməkdədir. Bu səbəbdən də faşist və işğalçı Ermənistanın demokratik prinsiplərə və media azadlığına təzyiq və təhdid siyasəti yolverilməzdir və hesab edirəm ki, onun özbaşınalığı cəzasız qalmamalıdır".

Baş redaktor diqqətə çatdırıb ki, bütün dünya ölkələrinə demokratiya "dərsi" keçməyə çalışan Fransa və ABŞ hansı səbəbdən onların media qurumlarını, jurnalistlərini, siyasətçilərini təhdid edən erməni terror qruplaşmalarının, lobbisinin, diaspor təşkilatlarının bu cinayətkar addımlarına susurlar? Söz və media azadlığını qorumağı özlərinin həyat amalı hesab edən beynəlxalq təşkilatlar, QHT-lər niyə tədbirsiz qalıblar? Ermənistanın, erməni lobbisinin medianı, söz azadlığını boğmaq əməllərinə nə üçün münasibət bildirilmir?

Vüqar Rəhimzadə əlavə edib ki, Ermənistanın insan haqları, demokratiya və azad media prinsiplərini təhdid edən addımlarının cəzasız qalması hər kəsi düşündürməlidir. Bu gün öz gözlərində tiri görməyənlərin başqalarının gözündə tük axtarmaları nə dərəcədə ədalətli sayıla bilər? Düşünürəm ki, Fransa və ABŞ-ın media nümayəndələrinin təhdid edilməsinə görə Ermənistana qarşı tədbirlər görməmələri bu dövlətlərin siyasətinin əsl mahiyyətini ortaya qoyur.

## "Prezident Qərb jurnalistlərinə tam bir master-klass keçir"



***"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın Ermənistanın işğalından azad olunması uğrunda apardığı zəfər yürüşü dvam edir. Hər gün qəhraman Ordumuzun cəbhədə əldə etdiyi yeni-yeni qələbələr haqqında məlumatlar alırıq". Bunu SİA-ya Milli Məclisin deputatı Rauf Əliyev deyib.***

Millət vəkilinin verdiyi məlumata görə, müharibə eyni zamanda informasiya cəbhəsində də gedir: "Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müharibə dövrü üçün müəyyənləşdirilən və həyata keçirilən siyasət düşmənə həm döyüş meydanında həm də informasiya müharibəsində üstünlük qazanmağımıza şərait yaratmışdır. Təcavüzkar Ermənistanın 27 sentyabr tarixindən Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladığı vaxtdan bəri Prezidentimiz dünyanın 23-dən çox məşhur televiziya kanallarına, informasiya agentliklərinə və qəzetlərinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təxribat, mülki əhaliyə qarşı həyata keçirdiyi hərbi cinayətlər, Azərbaycanın həmişə bu münaqişənin sülh yolu ilə həll edilməsinə tərəfdar olması, münaqişənin tarixi ilə bağlı, atəşkəs rejiminin pozulması və digər mühüm məsələlər barədə dünya ictimayyətinə Azərbaycanın mövqeyi barədə məlumat vermişdir. 31 oktyabr 2020-ci il tarixdə cənab Prezident növbəti müsahibəni Almaniyanın məşhur ARD televiziya kanalına vermişdir. Müsahibə vaxtı müxbirin atəşkəsin pozulması və sülh barədə sualını cavablandırarkən cənab Prezident qeyd etmişdir ki, atəşkəsi pozan Ermənistandır. Azərbaycanın üç dəfə atəşkəsə razı olması faktı hərbi toqquşmaları dayandırmaq və bu məsələni danışıqlar masasında, siyasi yolla həll etmək iradəsini nümayiş etdirir. Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən oktyabrın 31-dək dinc əhaliyə qarşı hərbi cinayyətlər törətmiş, nəticədə 91 mülki şəxs öldürülmüş,404 nəfər xəsarət almışdır. Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2465 ev, 97 çoxmənzilli yaşayış binası və 455 mülki obyekt yararsız vəziyyətə düşüb".

R.Əliyev bildirib ki, müsahibə zamanı cənab Prezident müxbirin açıqladığı bir çox feykləri təkzib edərək məntiqə və tarixi faktlara əsaslanan cavablar vermişdir: "Müxbirin Dağlıq Qarabağı azad etməyin hansı məqsəd daşıdığı ilə bağlı sualını cavablandırarkən cənab Prezident bildirmişdir ki, Dağlıq Qarabağın azad olunması sərvətlərə görə deyil, tarixi və hüquqi ədaləti bərpa etmək üçündür. Bu, Avropa dövlətlərinin öz hüquqi ərazilərinə sahib çıxması ilə müqayisə edilə bilər. Müxbirin "Dünya üzrə əksər tarixçilər" ifadəsinə münasibət bildirən cənab Prezident bu ifadənin də yanlış olduğunu bildirərək jurnalistə bəsit tarixi həqiqətləri izah edərək, tarixi mənbələrlə işləmək dərsi keçdi.

Ümumiyyətlə, Qərb jurnalistləri ilə müsahibələrində cənab Prezident tam bir master-klass keçir. Bununla yanaşı, müsahibələr həmin KİV-lərin bəzilərinin qərəzini və peşəkar jurnalistikadan uzaq olduqlarını göstərir. Nədənsə ARD müxbiri "Amnesty İnternational" və "Human Rights Watch" təşkilatlarının Ermənistan silahlı qüvvələrinin Bərdəyə qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təstiqləməsi faktının üstündən keçir. Qərbin aparıcı KİV-lərindən gəlmiş jurnalistlər sualları prokuror ədası ilə verir, faktları dəqiqləşdirmir, xristian təəsübkeşliyi edir, müsahibi ilə polemika girməyə cəhd edirlər.

Ali Baş Komandan, cənab Prezident İlham Əliyev ona ünvanlanan qərəzli suallara, xarici mediyanın sərgilədiyi ermənipərəst mövqeyə baxmayaraq, tarixi faktlara söykənən və əsaslandırılmış cavabları hələ çox jurnalistləri məəttəl qoyacaqdır.

Cənab Prezidentin Almaniyanın ARD televiziya kanalına verdiyi bu müsahibəsindən sonra həm qərb mediası həm də onun təmsilçisi anladı ki, Azərbaycan Prezidenti ona qarşı yönəlmiş ən mürəkkəb və qərəzli suallara belə verdiyi mükəmməl cavablarda dərin məntiqi və məlumatlılığı, yüksək intelektual səviyyəsi ilə qarşısındakı istənilən jurnalisti tərk-silah etməyə qadirdir. Cənab Prezident, Ali Baş Komandan növbəti dəfə sübut etdi və əyani şəkildə göstərdi ki, sadəcə döyüş meydanında deyil, eyni zamanda informasiya məkanında da xalqın və dövlətin maraqlarını ən yüksək səviyyədə qorumaqda davam edir. Cənab Prezident öz xalqının maraqlarını və mənafeyini qürurla, ləyaqətlə qoruyur.

İnanırq ki, cənab Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə tezliklə Qəhrəman Azərbaycan ordusu tərəfindən işğal altında olan bütün torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın üçrəngli bayrağı Xankəndində, Şuşada və işğaldan azad edilmiş digər yaşayış məntəqələrində qaldırılacaq".

***Ceyhun Rasimoğlu***

## Türkiyədə 4 yaşlı uşaq 91 saat sonra dağıntılar altından xilas edilib



Oktyabrın 30-da Türkiyənin İzmir şəhərində baş vermiş 6,6 bal gücündə zəlzələdən sonra dağıntılar altında qalan şəxslərin axtarışları davam edir. SİA-nın məlumatına görə, binalardan birində 4 yaşlı qız 91 saat davam edən axtarışlardan sonra xilas edilib. Dağıntılar altından çıxarılan qız xəstəxanaya yerləşdirilib. Qeyd edək ki, zəlzələdən ölənlərin sayı 102 nəfərə çatıb, 1 026 nəfər yaralanıb.

## Erməni təcavüzü nəticəsində 91 mülki şəxs həlak olub, 405 nəfər yaralanıb




Erməni təxribatı nəticəsində ölən və yaralanan Azərbaycanın mülki vətəndaşlarının sayı açıqlanıb. Baş Prokurorluğun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, sentyabrın 27-dən hazırkı vaxtadək ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində 91 mülki şəxs həlak olub, 405 nəfər yaralanıb.

Bundan başqa, 461 mülki obyekt, 97 hündürmərtəbəli yaşayış binası və 2488 yaşayış evi yararsız hala düşüb.

## Qarabağda məğlubiyyət, ölkədə qiyam: erməni ictimai rəyi qan ağlayır

*Deputat Gevork Petrosyan: "Paşinyan özünün populist çıxışlarını kəsməlidir, müharibə başlayanda o şoular düzənləyirdi"*




***Ermənistanda baş nazir Nikol Paşinyana qarşı hiddət və nifrət hissləri çoxalmağa başladıqca, ölkənin bir sıra siyasi-ictimai xadimləri, eləcə də mövcud siyasiləri, deputatları və s. şəxslər mövcud hakimiyyəti hədəfə alaraq, Qarabağda aldıqları ardıcıl məğlubiyyətlərn, çoxsaylı itkilərin hesabını sormağa başlayıblar. Əbəs deyil ki, artıq ölkədəki nüfuzlu şəxslərlə yanaşı, ölkədən köənarda fəaliyyət göstərən lobbistlər, diaspora təmsilçiləri, habelə oliqarxlar etiraz sslərini ucaldırlar. Hətta belə qənaətə gəlmək mümkündür ki, Ermənistan Qarabağdakı müharibədə aldığı ciddi zərbələrin aldınca, ölkə daxilində də qiyam ab-havası əsməyə başlayıb.***

"Mənim oğlum artıq 20 gündür ki, müharibədədir və ondan heç bir xəbər-ətər yoxdur"

Bu arada, daha bir erməni deputatı, "Çiçəklənən Ermənistan" partiyasının təmsilçisi Gevork Petrosyan hiddətini açıq-aşkar nümayiş etdirməklə öz itithamlarını sürdürməyə davam edib. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, erməni parlamentarisi növbəri çıxışında ən sərt ifadələrdən istifadə edərək, Nikol Paşinyanı hakimiyyətini əlində saxlamasını xalqı güdaza verməsi ilə əlaqələndirib. Daha dəqiq desək, onun çıxışı bilavasitə erməni xalqının münasibəti olaraq da qiymətləndirilə bilər.

"Mənim oğlum artıq 20 gündür ki, müharibədədir və ondan heç bir xəbər-ətər yoxdur", deyən Petrosyan Paşinyanın populizm üzərində köklənən çıxışlarına son qoyulmalı olduğunu qeyd edib: "Paşinyan özünün populist çıxışlarını kəsməlidir, müharibə başlayanda o şoular düzənləyirdi".

"Qadın batalyonları hazırlayırdı, deyirdi ki, bütün məmurlar müharibəyə gedəcəklər - bəs hanı onlar, niyə getmədilər?"

Deputat baş nazirin daha bir şousunun və populizminin onun qadınlar batalyonunun yaradılması və məmurların cəbhəyə yollanacağı ilə bağlı fikirləri ilə əlaqələndirib. Onun sözlərinə görə, bu gün cəbhəyə qadınlar gööndərilirsə, bunun özü erməni kişiləri üçün rüsvayçılıqdır.

Lakin digər tərəfdən, Petrosyan Pşainyandan növbəti hesabı soruşmağı da unutmayıb. "Qadın batalyonları hazırlayırdı, deyirdi ki, bütün məmurlar müharibəyə gedəcəklər - bəs hanı onlar, niyə getmədilər?", soruan deputat əlavə edib: "Nikol deyirdi ki, kimdə hansı forma varsa, qoy götürüb cəbhəyə yollansın. Bu nə münasibətdir?!"

"Forma yoxdur! Silah yoxdur! Bəs büdcə hansı?!"

Petrosyanın daha bir ittihamı İrəvan meriyasındadır. O, bir müddət əvvəl İrəvan merinin Qarabağa döyüşməyə gedəcəyini əks etdirən fotoların xatırladaraq, indi merin paytaxtda avtobus dayanacağı tikdirdiyini bildirib. O, bütün bunların reaklam, populizm və cinayətkarlıq adlandırıb. Belə ki, cəbhədə silah, ərzaq qıtlığı var və ölkənin bitməkdə olan büdcəsi boş-boş xərclərə israf olunur.

"Forma yoxdur! Silah yoxdur! Bəs büdcə hansı?! Bu pullara silah almaq lazımdır! Bəsdirin, oyanın! Sonra çox gec olacaq!", deyə "Çiçəklənən Ermənistan" partiyasının deputatı ittihamlarını hiddətlə davam etdirib.

Söz yox ki, bütün bu kimi çıxışlar həqiqətən də Ermənistanın nə qədər ağır bir durumda olmasını sübut edir və belə bir proqnoz irəli sürməyə şərait yaradır ki, artıq ölkədaxili qiyam da çox yaxındadır. Erməni xalqı anlamağa başlayıb ki, Qarabağ onların torpağı deyil və övladlarının başqasına mənsub olan torpaqlarda öldürülməsinin əsas baiskarlarından biri də məhz Nikol Paşinyan hakimiyyətidir. Artıq Ermənistanda Nikol Paşinyan pafosunu xalq hiddəti boğmağa başlayıb.

***Rövşən RƏSULOV***

## FOTOFAKT: Ermənistan mülki əhaliyə qarşı qadağan olunmuş fosforlu mərmilərdən istifadə edir!




Ermənistan silahlı qüvvələri Tərtər rayonunda dinc əhaliyə qarşı beynəlxalq konvensiyalarda qadağan olunmuş ağ fosforlu mərmilərdən istifadə edib. AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, Tərtər rayonunun Səhləbad kəndi ərazisinə atılmış fosforlu top mərmiləri xoşbəxtlikdən partlamayıb. ANAMA-nın əməkdaşı Mədət Məmmədov jurnalistlərə müsahibəsində bildirib ki, bu gün səhər 102 "Qaynar xətti"nə daxil olan məlumat əsasında əraziyə baxış keçirilib və iki ədəd partlamamış ağ fosforlu top mərmisi aşkarlanıb. 122 millimetrlik mərmilərin içərisində 3 kiloqram 800 qram ağ fosfor var. Mərmilər partlayıcı mexanizmlərindəki nasazlıq səbəbindən düşərkən partlamayıb. Fosforlu top mərmiləri partlayış yolu ilə yerində zərərsizləşdirilib.

Qeyd edək ki, fosforlu bombadan istifadənin qadağan edilməsi ilə bağlı müxtəlif beynəlxalq sənədlər var. İlk olaraq 1868-ci ildə Sankt-Peterburq deklarasiyası qəbul edilib. Bundan başqa, müharibə qurbanlarının qorunması haqqında 1949-cu il Cenevrə konvensiyasına və əlavə protokollar, "Adi silahların konkret növləri haqqında konvensiyaya" III protokol (1980) - həddən artıq ziyan vuran hesab edilə bilən və ya qeyri-seçim hərəkətinə malik adi silahların konkret növlərinin tətbiqinin qadağan edilməsi və ya məhdudiyyət qoyulması barədə konvensiya var. Həmin sənədlərdə qeyd olunub ki, istənilən şəraitdə mülki əhaliyə, ayrı-ayrı mülki şəxslərə və ya mülki obyektlərə yandırıcı silah tətbiq etməklə hücum qadağandır. Ermənistanın bu silahdan istifadə etməsi mülki Azərbaycan əhalisinə qarşı terror, təxribat və mümkün qədər çox qırğın törətmək məqsədi daşıyır.

# Müstəqilliyimizin, suverenliyimizin qarantı Müzəffər Azərbaycan Ordusu son 17 ildə

***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Cənablarının qətiyyətli addımları, xalqa müraciətləri cəmiyyətimizdə, dünyanın hansı nöqtəsində yaşamağından asılı olmayaraq, qəlbi Azərbaycanla döyünən hər kəsdə ruh yüksəkliyi yaradıb. Və dövlət başçımız İlham Əliyev 17 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər söz, hər kəlməsi, Güclü Ordumuzun, Rəşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir olmağımız 30 illik həsrətimizə son qoyuldu! Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Ermənistan siyasi rəhbərliyinə, erməni xalqına müraciət edərək, onları münaqişənin sülh yolu ilə həll olunmasına çağıraraq bildirib ki, qan tökülmədən torpaqlarımızdan çıxın. Bizim başqasının torpağında gözümüz yoxdur: "30 ildir ki, Azərbaycan Ermənistan təcavüzündən əziyyət çəkir.***

## *Prezident İlham Əliyev: "Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür"*




Biz bu barədə dəfələrlə BMT başda olmaqla, dünyanın bütün beynəlxalq təşkilatlarını məlumatlandırmışıq. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə kağız üzərində qalıb".

Dövlət başçısı bildirib ki, erməni vəhşiliyinin cavabı verilmədikcə, işğalçı ölkə öz cızığından çıxdı, bunun bir sonu olmalı idi və cinayətkar Ermənistan sentyabrın 27-də Azərbaycana qarşı növbəti təxribat cəhdini reallaşdırdı. Düşmən artilleriya qurğularından istifadə edərək mülki əhalini və yaşayış məntəqələrini hədəfə aldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan düşmənin hərbi təxribatının qarşısının alınması üçün ordumuza əmr verdi. Güclü Azərbaycan Ordusu və məğrur və rəşadətli əsgərlərimiz Ali Baş Komandanın əmrlərini yerinə yetirərək Azərbaycanımızın şanlı tarixini yazır. Bu o əsgərlərimizdir ki, düşmənləri 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovurlar: "Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".

### Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında

Azərbaycan Ordusunun potensialı göz önündədir. Ulu Öndərin başlatdığı ordu quruculuğunu son 17 ildə yeni keyfiyyət mərhələsinə yüksəldən Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılmasını uğurla təmin edib. Ümumiyyətlə, bu mərhələdə görülən tədbirlər nəticəsində Silahlı Qüvvələrimizin müasir döyüş standartlarına uyğun modernləşməsi baş verib. Ən yeni, dağıdıcı qüvvəyə malik silah və döyüş texnikası ordumuzun arsenalına daxil edilib. Dünyanın ən güclü ordularında olan artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, toplar, taktiki raket və zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları Azərbaycanda qoşun növlərinin silahlanmasında yer alır. Hissə və bölmələrimiz müasir zirehli tank texnikaları, müxtəlif təyinatlı təmir-təxliyə maşınları ilə təmin olunub. Bundan başqa, ən qabaqcıl ölkələrin istifadə etdiyi hava hücumundan müdafiə sistemləri ölkəmizin hava məkanını etibarlı şəkildə qorumaqdadır.

Bütün bunların nəticəsidir ki, Azərbaycan Ordusunun döyüş qabiliyyəti dəfələrlə artıb. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğu barədə deyib: "Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək".

Bunun nəticəsidir ki, inkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də artıq Azərbaycanın təcrübəsini öyrənir. Bu gün isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz regionun və dünyanın ən güclü 50 ordusu sırasına yüksəlib. Məhz bu inkişafın nəticəsidir ki, xalqımızın və Ali Baş Komandanın rəhbərliyi ilə bu gün yeni bir tarix yazıldı. Şanlı Ordumuz Qarabağın azadlığı uğrunda öz layiqli missiyasını uğurla icra edir. Bu gün 30 illik erməni işğalına məhz güclü ordumuz sayəsində son qoyulur.

### Hərbi üstünlüyümüzü təsdiqləyən qələbələr

Hərb tariximizə həkk olunan 2016-cı ilin Aprel hadisələri, cəbhə xəttində erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri Silahlı Qüvvələrimizin gücünün praktik təsdiqi oldu. Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istənilən tədbiri görə bilək.

Bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində baş verənlər isə aprel hadisələrinin təsadüfi olmadığını təsdiq etdi. Bu dəfə də Ermənistanın hərbi təxribatının qarşısını alan hərbçilərimiz yeni qəhrəmanlıq dastanı yazdılar. Düşmənin qəfil və xain hücumunun qarşısını dərhal alaraq ona sarsıdıcı zərbə vuran, qaçmağa məcbur edən ordumuz Ermənistanı darmadağın etməyə qadir olduğunu Aprel döyüşlərindən sonra bir daha döyüş meydanında sübut etdi.



Ordumuzun hər iki uğuru mühüm hərbi qələbə olmaqla yanaşı, beynəlxalq arenada bütün diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etdi. Hadisələr Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi. Bu döyüşlər bir daha dövlətimizin və ordumuzun gücünü, xalqın birliyini, həmrəyliyini, vətənpərvərliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bir daha göstərdi.

### Azərbaycan Ordusunun uğurları - xalq-ordu birliyi

Sentyabrın 27-dən başlayaraq Ermənistan-Azərbaycan münaqişəsində hərbi toqquşmalar yenidən alovlandı. Bu dəfə də işğalçı tərəf növbəti təxribata əl ataraq, yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutdu. Azərbaycan vəziyyətə uyğun adekvat tədbirlər gördü və düşmən mövqelərini susdurmaq üçün əks-hücum əməliyyatına başladı. Qısa müddət ərzində düşmən mövqeləri darmadağın edildi, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və rayonlarının bir sıra kəndləri, həmçinin bəzi yüksəkliklər, habelə Suqovuşan işğalçılardan təmizləndi.

Hazırda düşməni yerinə oturdan ordumuz torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində həyata keçirdiyi əməliyyatları uğurla davam etdirir.

Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan Ordusunun güc-qüdrətinin indiki səviyyəyə çatmasının təsadüfi olmadığını da xüsusi vurğulayıb: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Bu gün hər bir vətəndaş hərbçilərimizin peşəkarlığına, ordumuzun gücünə güvənir. Həmçinin, Ermənistan və ona havadarlıq edən qüvvələr də ordumuzun gücünü və qüdrətini artıq yaxşı bilir. Düşmən aydın şəkildə başa düşür ki, müasir Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və işğal altındakı torpaqlarımızın bütövlükdə qaytarılacağı və ya Ermənistanın buna məcbur ediləcəyi gün yaxındadır.

# Müstəqilliyimizin, suverenliyimizin qarantı Müzəffər Azərbaycan Ordusu son 17 ildə

## *Prezident İlham Əliyev: "Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür"*



Belə bir orduya sahib olan Azərbaycan rəhbəri möhtərəm İlham Əliyev uzun illər ən yüksək tribunalardan daim bəyan edib ki, əgər münaqişənin həllində sülh danışıqları səmərə verməsə, işğal altındakı torpaqlarımız hərbi yolla azad ediləcək.

Artıq xalqımız o günü yaşayır. Azərbaycan Ordusunun vətənpərvər, cəsur və mərd oğulları tərəfindən cəbhədə bir-birinin ardınca uğurlar əldə edilir, düşmənlə təmas xəttində döyüş şücaəti, qətiyyəti göstərilir, xalqımızın illərdən bəri gözlədiyi Böyük Qələbə salnaməsinin ilk səhifələri yazılır. Heç bir gücə, heç bir sərsəm bəyanatlar, cəbhə xəttində təxribatlar törədən, Azərbaycanın yaşayış məntəqələrini atəşə tutan, danışıqlar prosesini pozan Ermənistan və onun rəhbərliyi anlamalıdır ki, Azərbaycanın apardığı mübarizə cənab Prezidentimizin dediyi kimi, haqq mübarizəsidir, haqq davasıdır. Çünki işğala məruz qalan, bir milyondan artıq soydaşı qaçqın və məcburi köçkün vəziyyətində yaşayan, 20 faiz torpağı işğal altında olan, məhz xalqımızdır, Azərbaycandır.

Artıq Böyük Qələbənin, Böyük Qayıdışın reallaşması üçün ciddi zəmin yaranıb və güclü iqtisadi imkanlara, möhkəm beynəlxalq mövqeyə, qüdrətli orduya malik Azərbaycan tarixi ədaləti bərpa etmək əzmindədir. Və dövlət başçımız İlham Əliyev 17 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər söz, hər kəlməsi, Güclü Ordumuzun, Rəşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir olmağımız 30 illik həsrətimizə son qoyuldu! Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Ermənistan siyasi rəhbərliyinə, erməni xalqına müraciət edərək, onları münaqişənin sülh yolu ilə həll olunmasına çağıraraq deyib ki, qan tökülmədən torpaqlarımızdan çıxın. Bizim başqasının torpağında gözümüz yoxdur: "30 ildir ki, Azərbaycan Ermənistan təcavüzündən əziyyət çəkir. Biz bu barədə dəfələrlə BMT başda olmaqla, dünyanın bütün beynəlxalq təşkilatlarını məlumatlandırmışıq. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə kağız üzərində qalıb".

Dövlət başçısı bildirib ki, erməni vəhşiliyinin cavabı verilmədikcə, işğalçı ölkə öz cızığından çıxdı, bunun bir sonu olmalı idi və cinayətkar Ermənistan sentyabrın 27-də Azərbaycana qarşı növbəti təxribat cəhdini reallaşdırdı. Düşmən artilleriya qurğularından istifadə edərək mülki əhalini və yaşayış məntəqələrini hədəfə aldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan düşmənin hərbi təxribatının qarşısının alınması üçün ordumuza əmr verdi. Güclü Azərbaycan Ordusu və məğrur və rəşadətli əsgərlərimiz Ali Baş Komandanın əmrlərini yerinə yetirərək artıq 44 gündür ki, Azərbaycanımızın şanlı tarixini yazır. Bu o əsgərlərimizdir ki, düşmənləri 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovurlar: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".

Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi. Təcavüzkar və işğalçı Ermənistan gördü ki, xalq-iqtidar-ordu birliyinin nümunəsi QƏLƏBƏDİR! Həmçinin, bu vəhdətin nümunəsi qədirbilən xalqımızın öz Prezidentinin, Ali Baş Komandanının yanında olması, Onun hər sözünə, bütün qərarlarına sadiqliyidir. Məhz bu gün düşmən ordusu Azərbaycan əsgərinin qabağında aciz qalaraq döyüş meydanından qaçmağa məcbur olur. Çünki yalançı, faşist, qorxaq, rəzil Paşinyanın bu iki ildən yuxarı hakimiyyətdə olduğu müddətdə Ermənistanı və erməni xalqını məhvə aparır. Bunu nəinki erməni xalqı, bütün dünya gördü və görür.

"Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir", - deyən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirib və deyib: "İti qovan kimi qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!".

**RƏFİQƏ KAMALQIZI**

# Paşinyan öz ölkəsinin darmadağın olmasında təqsirkarlar axtarır

Ermənistan hökumətinin başçısı Nikol Paşinyan noyabrın 3-də "Jerusalem Post" nəşrinə müsahibəsində İsraili "iblis ilə müttəfiqlikdə" ittiham edib (bax: https://www.jpost.com/middle-east-/armenian-pm-to-post-israel-joins-forces-with-the-devil-647790).

AZƏRTAC xəbər verir ki, Ermənistanın baş nazirinin sözlərinə görə, İsrail "Türkiyə ilə, suriyalı muzdlular və terrorçularla əlbir olaraq Dağlıq Qarabağ ermənilərinə qarşı soyqırımında iştirak edir". Qəzet xatırladır ki, Yerevan özünün İsraildəki səfirini geri çağırandan az sonra yəhudi dövlətinin başçısı Reuven Rivlin Paşinyana zəng vurub və onun ölkəsinə humanitar yardım təklif edib. Ermənistan hökumətinin başçısı müxbirin "Ermənistan bu yardımı almaqda maraqlıdırmı" sualına kobud şəkildə cavab verərək İsrailin həmin yardımı "muzdlulara və terrorçulara" göndərməsini məsləhət görüb, bununla da bir daha sübut edib ki, Paşinyan Yerevandakı Teatr meydanından yüksək hökumət kabinetinə keçməklə siyasətçi olmayıb, əvvəlki kimi xuliqan küçə uşağı olaraq qalıb.

Ümumiyyətlə, mən maraqlı bir xüsusiyyət müşahidə etmişəm. Hər dəfə erməni ordusu kiçik bir qələbə qazananda onu bu ordunun "rəşadəti", "istedadı", "mərdliyi" və s. kimi qələmə verirlər. Amma işləri özlərinin istədiyi kimi getməyəndə (yəni, döyüş meydanında zərbə alanda) "təbii ki," Ermənistan özündən başqa hamını təqsirkar hesab edir.

Birinci Dünya müharibəsi dövründə də belə olub. O vaxt Şərqi Anadoluda baş vermiş üsyan ara-sıra qələbələrlə (əlbəttə, "rəşadət" sayəsində) bərabər sonda məğlubiyyətlə müşayiət olunurdu ("Antantanın satqınlığı"nın nəticəsi). Bu gün də eyni vəziyyət müşahidə olunur.

Baş nazir Nikol Paşinyanın "Jerusalem Post" nəşrinə müsahibəsi Ermənistanın min illik göz yaşları tökməsi salnaməsinə daxil olacaq. Sən demə, Ermənistan ordusunun Qarabağda bugünkü məğlubiyyətlərində başqa ölkələrlə bərabər, İsrail də təqsirkar imiş. Onun təqsiri... Azərbaycana silah satmasıdır.

Fikir verin, bağışlamır ha, satır. Yəni, əlin cibində olsun, sən də al. Kim sənə mane olur?

Amma yox! Ermənistanın dilənçi ölkə olması və özünü dolandıra bilməməsi, əlbəttə, onun yox, ətrafdakıların təqsiridir. Hamı "təqsirkardır", bircə Ermənistanın özündən başqa. Azərbaycan da "təqsirkardır" ki, onun zəngin resursları var, səmərəli iqtisadiyyat qura bilib. Hərçənd indiyə qədər başımız-qulağımız getmişdi ki, Ermənistan özünün intellektual potensialı hesabına ölkədə texnoloji cənnət, ikinci "Silikon vadisi", ikinci "İsveçrə" yarada bilər. Amma həmin potensial o qədər dərində gizlənib ki, indiyə qədər üzə çıxa bilmir.



THE JERUSALEM POST CORONAVIRUS US ELECTIONS ISRAEL NEWS WORLD NEWS MIDDLE EAST U.S. POLITICS DIASPORA OPINION Login

Armenian PM to Post: Israel joins forces with the devil

Pashinyan said that it was only a matter of time before Turkey's "imperialistic ambition" will be aimed toward Israel.

By HERB KEINON NOVEMBER 3, 2020 12:19

Armenian Prime Minister Nikol Pashinyan greets reservists at the Defence Ministry's base before their departure for the breakaway region of Nagorno-Karabakh in Yerevan, Armenia, October 16, 2020. (photo credit: ARMENIAN PRIME MINISTER PRESS SERVICE/TIGRAN MEHRABYAN/PAN PHOTO VIA REUTERS)

Subscribe for our daily newsletter

Your e-mail address

By subscribing I accept the terms of use

Hot Opinion

Remain Strong By JPOST EDITORIAL

Benjamin Netanyahu at his best and at his worst By SUSAN HATTIS ROLEF

Reevaluating Trump's legacy as a friend of Israel By JEFF BARAK

What will the elections do to the US-Iran conflict? – By JACOB NAGEL

Reviewing the legacy of Yitzhak Rabin, warts and all By AMOTZ ASA-EL

Advertisement

Ey bizim "əziz" qonşularımız, son 30 il ərzində nəyə görə heç nə yaratmamısınız? Kim sizə mane olurdu? Axı, özünüz deyirdiniz ki, resurslar olmasa belə, intellekt hesabına güclü dövlət yaratmaq olar - yerin təkində heç bir sərvəti olmayan Yaponiya kimi, yaxud hər hansı təbii ehtiyatları olmayan Macarıstan kimi.

İşğal etdiyiniz Kəlbəcər, Laçın və Zəngilan rayonlarında Azərbaycanın ələ keçirdiyiniz qızıl yataqları sizə kömək etmədi? Siz 30 il ərzində bizim qızılı çıxarıb satırdınız. Axı bu, ilkin kapital kimi sizə "çatışmayan" resurslar idi. Bəs nə üçün siz (Azərbaycanın hərbi sənayesi kimi) yüksək dəqiqlikli silahlar istehsal edə bilən iqtisadiyyat yaratmamısınız, yaxud elə həmin İsraildən silahlar almamısınız? Sizin "intellekt xəzinəniz" hara getdi? Deməli, bizim qızılı xərcləyib yediniz?

"Hörmətli" Nikol Vayvayeviç! Ermənistandan fərqli olaraq Azərbaycan... (ölkənin adını demirik) pulsuz silah almır. Biz nə alırıqsa, halal pulumuzla alırıq. Amma sizə nədənsə pulsuz verilən silahlar da kömək etmir. İndi siz müftə canlı qüvvə almaq istəyirsiniz. Necə fikirləşirsiniz, pulsuz əldə etdiyiniz silahlar döyüş meydanında sizə nə üçün kömək etmir?

Cavab məlumdur: ona görə ki, "sizin özünüzdən başqa hamı təqsirkardır". İndi də İsrail "təqsirkardır". "Jerusalem Post" nəşrində bu gün dərc edilmiş müsahibədə lap ağ eləmisiniz!

Əgər Azərbaycan ümumiyyətlə xaricdən silah almasa, bu silahları özündə istehsal etməyə başlasa (yeri gəlmişkən, o, tədricən buna başlayıb), onda kim "təqsirkar" olacaq?

Əlbəttə ki, sizdən başqa bütün dünya. Təqsir ondan ibarət olacaq ki, dünya Zori Balayanın sayıqlamalarına uyaraq qan tökməyə, onun ölkəsinin ələ keçirdiyi özgə torpaqlarını əldə saxlamasına kömək etməyib.

# Səyavuş Heydərov: Ermənistanın münaqişəni dini motivə çəkmək cəhdləri iflasa uğrayır

***Təcavüzkar dövlət xristianlığa da böyük ləkə, xəcalət mənbəyidir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 20-ci əsrin ən faciəli münaqişələrindən biridir. Bu münaqişə nəticəsində xalqımız böyük fəlakətlər, tarixi haqsızlıq və işğalçı təfəkkürlə üz-üzə qalmışdır. Təcavüzkar Ermənistanın tarixi "tərcümeyi-halı" bizə deməyə əsas verir ki, bu xalqın "xəmiri" xəyanət və satqınlıqla yoğrulub.***

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov deyib. O bildirib ki, XX əsrin əvvəllərində Osmanlı dövlətində önəmli mövqelərə malik olan, lakin onun zəiflədiyi dövrdə xəyanət edərək çar Rusiyasına sığınan ermənilər "zəifi" sat, "güclünü zəifləyəndə satarsan" prinsipi ilə yaşayıblar:

"1918-ci ildə yaranmış geosiyasi reallıqlardan yararlanaraq tarixi Azərbaycan torpaqlarında özlərinə saxta bir dövlət qurmağı bacaran bu nankor xalq SSRİ dövründə müəyyən səbəblərə görə üstün mövqelər əldə etməklə öz xislətinə xas "fəaliyyətindən" əl çəkməmiş, hər vəchlə Azərbaycan xalqına qarşı düşmənçilik siyasətini davam etdirmişdir. Ermənistan ərazisindən azərbaycanlıların bir neçə dəfə köçürülməsi buna əyani sübutdur.

1980-ci illərdə SSRİ-nin siyasi-iqtisadi cəhətdən zəifləməsi, "yenidənqurma" siyasətinin iflasa uğraması bu imperiyanı süquta sürükləyəndə Qərb dövlətləri də bu vəziyyətdən maksimum dərəcədə bəhrələnməyə çalışırdı. Həmin dövrdə Qərbin maraqları ermənilərin maraqları ilə üst-üstə düşürdü. Belə ki, yeni ərazilər əldə etməyə çalışan ermənilər Dağlıq Qarabağda milli ədavəti qızışdırırdı. Tarixin hər dövründə "ikiüzlü" və "ləyaqətsiz" hərəkətləri ilə seçilən erməni xisləti bir tərəfdən Qərbin maraqlarına uyğun olaraq SSRİ-nin daha da zəifləməsi və dağılmasında müstəsna rol oynamış milli zəmində qarşıdurmaya rəvac verir, digər tərəfdən milli məsələlərin xüsusiyyətlərini dərindən bilməyən Sovet rəhbərliyini Azərbaycana qarşı yönəldirdi. Heç kimə sirr deyil ki, həmin dövrdə Sovet İttifaqının rəhbəri olmuş Mixail Qorbaçov Qərbin böyük planının bir parçası idi. M.Qorbaçovun erməni lobbisinin dəstəyi ilə hakimiyyətə gəlişi onda ermənilərə qarşı xüsusi "münasibət" və imkanlar yaratmışdı.

Ermənilər yaranmış vəziyyətdən hiyləgərcəsinə istifadə edərək öncə Ulu Öndər Heydər Əliyevin Moskvada tutduğu yüksək vəzifələrdən kənarlaşdırılmasına nail oldular. Sonra isə Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün xaricdəki erməni lobbisi ilə birlikdə məqsədyönlü fəaliyyətə keçdilər. Nəticədə Azərbaycana qarşı yönəlmiş təxribatlara və get-gedə qızışan münaqişə qığılcımlarına göz yumuldu.

Dağlıq Qarabağ Muxtar Vilayətində nizam-intizam yaratmaq əvəzinə ona xüsusi idarəçilik statusu verilməklə bugünkü mövcud münaqişənin əsası qoyuldu. SSRİ-nin süqutunda birbaşa rol oynayan ermənilər riyakarcasına daha sonra Rusiya və onun rəhbəri Boris Yeltsinlə də "alət" qismində əməkdaşlığı davam etdirdilər".



S.Heydərov bildirib ki, 1988-ci ildə erməni separatçılarının Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamış bu münaqişə yekunda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələndi:

"İndi isə Ermənistanda "Soros məhsulu" olan iqtidar rəhbərliyi Qərbə üz tutub. Paşinyanın inqilab ərəfəsində küçələrdə səsləndirdiyi bütün şüarlar anti-Rusiya xarakteri daşıyırdı. Bəli, ermənilər bu gün də Rusiyaya xəyanət edirlər. Bir tərəfdən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) ayaqlarına qapanıb yalvaran Ermənistan istədiyi cavabı almadığı üçün dərhal NATO-nun qapısını döydü. Qərb və Rusiya arasında əsrlərdir manevrlər etməyi bacaran bu xalqdan heç kim sədaqət gözləməməlidir.

Özlərini sadəcə "alət" və "əlaltı" funksiyasında görən ermənilər hansı xalq tərəfindən nəvaziş görüblərsə, sonda mütləq o xalqa xəyanət ediblər. Onların satqınlıq və xəyanət üzərində təşəkkül tapan "əqidəsi" tarixin bütün dövrlərində açıq şəkildə özünü büruzə vermişdir. Əlbəttə ki, siyasi proseslərdə onların çirkin və qeyri-əxlaqi fəaliyyətini əsrlərdir Azərbaycan xalqı görür.

Xalqımız bu terrorçu zehniyyətdən çox əziyyət çəkib. Ancaq bu gün Ermənistan sadəcə siyasi olaraq deyil, dini-mənəvi cəhətdən də iyrənc və qəbuledilməz mövqe nümayiş etdirir. Bir neçə gün əvvəl bütün Ermənistan katalikosu II Qareqinin xalqa müraciəti, onun kilsə adından bütün vətəndaşları və hətta uşaqları belə ölümə qədər hərbi savaşa çağırması açıq-aşkar dinin siyasiləşdirilməsi faktıdır. Ermənistanın dini lideri anlamır ki, bütün dinlər insanları sülhə və əmin-amanlığa çağırır. Kilsə adından çıxış edərək müharibə bəyənatları verməkl yalnız onun ağlına gələ bilərdi. Nəticə isə birmənalıdır: Ermənistan xristianlığı siyasiləşdirməyə çalışır. Əslində Ermənistanı heç xristian dövləti də adlandırmaq olmaz.

Xristianlığın bütün mötəbər, sülhsevər və ümumbəşəri prinsiplərini tapdalayan bu dövlətin mənəviyyata hörmət etməsi mümkün deyil. Ermənistan mənəviyyatsız dövlətdir. Çünki mənəviyyatı olan dövlət silahsız insanların, məsum körpələrin üzərinə raket yağdırmaz. Bu xalqın "köksüzlüyü" bütün davranışlarında aydın şəkildə sezilir.

Döyüş meydanında müzəffər Ordumuz qarşısında tab gətirə bilməyən namərd düşmən hər vasitədən istifadə edir. Dini faktoru ortaya ataraq Şuşadakı kilsənin vurulması ilə bağlı ölkəmizə qarşı başlatdığı çirkin "kampaniya" nəticə vermədiyi üçün onlar daha qlobal müstəviyə keçərək məsələni xristian-müsəlman qarşıdurmasına çevirmək istəyir. Gəncəni, Bərdəni, Tərtəri və digər yaşayış məntəqələrimizi raket atəşinə tutaraq yüzə yaxın günahsız insanın ölümünə səbəb olan bu "dövlət" öz terrorçu mahiyyətini bir daha göstərir. Terrorun, terrorçunun dili, dini, irqi olmadığını bilsək də, bir dövlətin bütün dünyəvi və dini strukturları ilə birgə terrorizm mənbəyinə çevrilməsi əslində qlobal təhlükəsizliyə təhdiddir. İŞİD, Əl-Qaidə, Boko Haram kimi terror təşkilatları islam dinini necə siyasiləşdirib ölkə və şəhərləri viran qoyursa, Ermənistan terror təşkilatı da xristianlığı siyasiləşdirərək şəhərlərimizi bombalayır, dinc sakinlərə qarşı soyqırımı aktı törədir.

Onlar Xocalı soyqırımını bu gün də davam etdirmək niyyətində olduqlarını öz əməlləri ilə bəyan edirlər. Ermənistan katalikosu II Qareqinin məlum müraciəti isə bir daha sübut edir ki, onlar üçün heç bir dəyər yoxdur. Qəsbkarlığı, təcavüzü, haqsızlığı dini müstəvidən pərdələmək, hətta dini buna alət etmək xristian aləminə qarşı da böyük hörmətsizlikdir. Bu dövlət dünya və region üçün olduğu kimi, xristianlıq üçün də bir ləkə, xəcalət mənbəyidir. Ermənistanın bu hərəkətləri düşünülmüş və planlı bir strategiyadır. Onlar bu münaqişəni dinlərarası toqquşma səviyyəsinə gətirərək beynəlxalq təhlükəsizlik üçün ciddi bir təhdid yaratmaq, dini zəmində total müharibəni tətikləmək istəyirlər. Bununla da böyük dövlətlərin dini zəmində müharibəyə cəlb edilməsini arzulayırlar. Azərbaycan isə daim dinlərarası və mədəniyyətlərarası dialoqun mərkəzi kimi çıxış edir. Dünya birliyi hər iki ölkənin məqsəd və məramını obyektiv qiymətləndirməli, ermənilərin ləyaqətsiz planları ilə bəşəri dəyərlər sisteminə vuracağı zərərləri zamanında dəyərləndirməlidirlər. Heç kəs unutmamalıdır ki, biz öz torpağımızda döyüşür, ərazi bütövlüyümüzü bərpa edirik.

Bu Vətən müharibəsində bütün dinlərə mənsub, o cümlədən rus, yəhudi və s. millətlərdən olan Azərbaycan vətəndaşları çiyin-çiyinə vuruşur, şəhid olurlar. Ermənistanın bu müharibəyə dini don geyindirmək cəhdləri baş tutmayacaqdır. Çünki Azərbaycan bütün dinlərin və etnik qrupların nümayəndələrinin bir ailə kimi yaşadığı tarixi bir məkandır. Ermənistan artıq məğlub olub. Əmin olun ki, bunu başda Paşinyan olmaqla, hər kəs anlayır. Sadəcə hakimiyyəti itirməmək məqsədilə manevrlər etmək və rüsvayçı formada məğlub olduqlarını gizlətmək üçün vaxtı uzadırlar. Özünü indi də Qərbə "sırımaq" istəyən bu hakimiyyət fəlakətə məhkumdur. Qərb isə öz dəyərlər sisteminə hörmət etməklə bu təcavüzkar ölkənin əməllərinə düzgün qiymət verməlidir. Onlar da anlamalıdırlar ki, bəşəriyyət üçün olduqca təhlükəli bir oyun oynayan Ermənistan artıq bir "alət" kimi də funksionallığını itirib.

Əminliklə deyə bilərik ki, başda Paşinyan olmaqla, digər erməni təcavüzkarları da tarix və beynəlxalq qanunlar qarşısında törətdikləri vəhşiliyə, təcavüzə görə cavab verəcək, mütləq cəzalarını alacaqlar. Ona da əminəm ki, bunu daha 27 ildən sonra yox, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə yaxın zamanlarda mütləq görəcəyik!".

## "Bizə heç kim və heç nə mane olmur!"



"Ermənistanın Azərbaycanın şəhərlərini raket atəşinə tutmasından sonra müxtəlif ölkələrin diplomatik korpusunun nümayəndələri, səfirlər, hərbi attaşelər hadisə yerinə aparılır və erməni vəhşiliyi ilə tanış edilir. Xarici ölkələrin təmsilçiləri mülki insanların hədəf götürülməsi səhnəsiylə yerindəcə tanış olurlar. Bu hal Ermənistanı ciddi narahat edir". Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib.

"Çünki, diplomatlar və hərbi attaşelər döyüş bölgələrinə aid olmayan Gəncənin, Mingəçevirin, Bərdənin vurulması barədə hesabatlar hazırlayır və öz ölkələrinə göndərirlər. İrəvan "vəziyyətdən" çıxış yolu kimi Ermənistanın və Dağlıq Qarabağın "ombudsmanları" adından birgə müraciət hazırlayıb. Müraciət İrəvandakı diplomatik korpus nümayəndələrinə ünvanlanıb ki, onlar da Dağlıq Qarabağa gəlib, "dağıntılarla" tanış olsunlar. Birincisi, özünə hörmət edən heç bir diplomat Ermənistanın xaricində Azərbaycana aid torpaqlara qanunsuz gəlməz. İkincisi, bu beynəlxalq hüquqa zidd olduğu kimi həmin diplomatların həyatı üçün təhlükəlidir. Bizə heç kim və heç nə mane olmur!"- deyə, politoloq fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

## Ermənistan parlamentində çaxnaşma

Ermənistan parlamentində nazirlə millət vəkili arasında mübahisə düşüb. SİA xəbər verir ki, hadisə 2021-ci il üçün büdcə müzakirəsi zamanı yaşanıb.



Belə ki, maliyyə naziri Atom Cancuqazyan dövlət işçilərinin maaşından 30% bonus tutulması qaydasının dəyişməyəcəyini bildirib. Ermənistan parlamentində hakim çoxluqdan olan millət vəkili, parlamentin iqtisadi məsələlər komissiyasının sədri Babken Tunyan isə nazirə etiraz edib. O bildirib ki, pula qənaət etmək lazımdırsa, ilk növbədə nazir özündən başlamalıdır: "İndi qənaət etməyiniz lazımdırsa, özünüzdən, yəni dövlət aparatındakı bonuslardan başlamalısınız. Cəmiyyət mükafatların arxasındakı məntiqlə deyil, müharibə şəraitində onların verilməsi ilə maraqlanır".

Qeyd edək ki, Ermənistan hökumətində il ərzində hər hansı şöbədə gözlənilməz işçi vəzifəsi açılarsa, yeni işçinin əmək haqqı bonus fondundan ödənilir.

Bonuslar orta hesabla dövlət qulluqçularının maaşının 30%-ni təşkil etsə də, maaşlarının 100-120%-i qədər mükafat alan məmurlar var. Ermənistanın 2021-ci il dövlət büdcəsi layihəsinə görə, dövlət aparatındakı mükafatlar üçün 18 milyard 825 milyon dram (təqribən 40 milyon dollar) vəsaitin ayrılması planlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 1% çoxdur. Bu məbləğ Qarabağda hərbi əməliyyatlar başlamazdan əvvəl tərtib edilib və nəzərə alınmayan büdcə layihəsinə daxil edilib.

***Aysel Məmmədova***

## Azərbaycanda 1242 nəfər COVID-19-a yoluxub, 15 nəfər vəfat edib




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1242 yeni yoluxma faktı qeydə alınıb, 551nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 15 nəfər vəfat edib.

# Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətçilik tariximizin ən şərəfli səhifələri yazılır

*Milli Məclisin deputatı Anar Məmmədovun yap.org.az-a müsahibəsi*

***-Anar müəllim, bu gün Azərbaycan dünyada dinamik inkişaf edən, nüfuzlu ölkə kimi tanınır. Bu barədə fikirlərinizi bilmək istərdik...***

-Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında ən öncül yerlərdən birini tutur. Bu inkişafın əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Cənab Prezident İlham Əliyevin dövlət başçısı kimi nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti ilk gündən ona böyük ictimai dəstək, xalqın sonsuz inam və etibarını qazandırmışdır. Prezident İlham Əliyev isə bu gücə söykənərək, xalqın inam və etimadını istinad nöqtəsi olaraq dəyərləndirmiş, qəbul etdiyi bütün taleyüklü qərarlarda yalnız xalqın mənafeyini rəhbər tutmuşdur.

Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Son 17 il sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan uğurları, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması təmin etmişdir. Bununla yanaşı, ölkənin artan imkanları hesabına insan kapitalının formalaşması, əhalinin sosial təminatının, xalqın rifahının daha da yüksəlməsinə yönəlmiş, Azərbaycan nümunəvi sosial siyasət həyata keçirən dövlətə çevrilmişdir.

***-Ötən dövr ərzində sosial-iqtisadi inkişafla yanaşı, ölkədə hərtərəfli islahatların həyata keçirilməsi baxımından da mühüm nailiyyətlər əldə olunub. Bu haqda nə deyə bilərsiniz?***

Bu zaman keçidində iqtisadiyyatın dinamik inkişafı, uzunömürlü tərəqqi, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuş, həyata keçirilən dövlət proqramları bütün bölgələrin hərtərəfli və tarazlı sosial-iqtisadi tərəqqisinə və qeyri-neft sektorunun inkişafına yol açmışdır. Prezident İlham Əliyevin milli inkişaf doktrinasının başlıca hədəflərini təşkil edən modern və innovativ iqtisadiyyatın idarə olunması şəffaflığa və açıq cəmiyyətin təmin edilməsində əsaslanmışdır. İqtisadiyyatın aqrar sektorunda islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün güzəştlər və dövlət yardımı iqtisadiyyatın bu sahəsinin inkişafına güclü təkan vermişdir. Həmçinin, məqsədyönlü sosial tədbirlər nəticəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, rifah halının yüksəlməsinə xidmət edən uğurlu sosial dövlət modeli formalaşdırılmış, işsizliyin və yoxsulluğun səviyyəsinin aşağı salınmasına nail olunmuş, əməkhaqları, pensiya və təqaüdlər əsaslı şəkildə artırılmışdır.



Bu gün möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni nəsil və modern islahatlar strategiyası Azərbaycanın dinamik inkişafını təmin edən mühüm şərtlərdən biridir. Ötən dövr göstərdi ki, ölkədə vitse-prezidentlik təsisatının yaradılması və hörmətli Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi sonrakı mərhələdə vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsində mühüm amil olmuşdur. Birinci vitse-prezident vəzifəsinə təyinatından sonra Mehriban xanım Əliyeva dövlətin sosial siyasətinin daha uğurla həyata keçirilməsinə öz töhfələrini verməkdədir.

***-Azərbaycan ordu quruculuğu istiqamətində də çox ciddi uğurlara imza atıb. Bu gün şanlı ordumuzun gücü hesabına işğal altında olan torpaqlarımızın bir hissəsi azad edilib və bu proses davam etməkdədir...***

-Bəli, ötən 17 ildə bütün digər istiqamətlərdə olduğu kimi, müasir ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı, Azərbaycan Ordusu dünyanın 50 ən güclü orduları sırasına daxil oldu. Bu gün şanlı Azərbaycan Ordusu Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bir çox kəndlərini, Tərtərin Suqovuşan və Talış kəndlərini, Hadrut qəsəbəsini, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərlərini düşməndən təmizləyərək öz müzəffər yürüşünü davam etdirir, Ali Baş Komandanın dediyi kimi düşmənə dərs verir və öz uğurlu əməliyyatları ilə Azərbaycan xalqını sevindirir, sözlə ifadəsi mümkün olmayan hislər yaşadır.

Azərbaycan xalqı öz Prezidentinə, Onun komandanlığı ilə qələbələr qazanan rəşadətli ordumuza inanır və yaxın günlərdə üçrəngli bayrağımızın Xankəndi, Şuşa və digər yaşayış məntəqələri üzərində dalğalanacağına əmindir. Haqq işi uğrunda vuruşan, xilaskarlıq missiyasını uğurla yerinə yetirən ordumuzu alqışlayır, düşmənə tezliklə tam diz çökdürməsini, qələbə qazanmasını arzulayırıq. İnşallah, belə də olacaq!

## Tahir Rzayev: "Erməni təcavüzkarları törətdikləri vəhşiliklərin cəzasını alacaq"

"Azərbaycan Ordusunun "Dağlıq Qarabağ xalqına", torpaqlarına təcavüz etməsi barədə Ermənistanın hərbi - siyasi rəhbərlərinin, ermənipərəst dairələrin səsləndirdikləri fikirlər sərsəmlikdən, böhtan və şantajdan başqa bir şey deyil. Ermənistanın baş Naziri Nikol Paşinyan isə öz tərəfdaşlarından daha" irəli" gedərək erməni xalqına qarşı azərbaycanlıların soyqrım törətdikləri haqqında fikirlər söyləyir və beynəlxalq aləmin buna etinadsız qalmaması barədə bəyanatlar səsləndirir. Bu əlbətdə erməni xislətinin, həyasızlığının bir ifadəsidir. Çünki Azərbaycan ordusu öz ərazisində erməni terrorçularına, quldurlara, separatçılara qarşı mübarizə aparır və torpaqların işğaldan azad edilməsi uğrunda döyüşür". SİA-nın verdiyi məlumata görə, bu fikirləri yap.org.az saytına Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.



Tahir Rzayev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Almaniyanın ARD televeziya kanalına müsahibəsində bir daha qeyd edib ki, "Dağlıq Qarabağın azad olunması tarixi və hüquqi ədaləti bərpa etmək üçündür". Bu haqq, ədalət mübarizəsidir və ordumuz 27 il işğal altında inləyən torpaqlarımızı, viran qoyulan şəhər və kəndlərimizi, ata - baba yurdlarımızı azqın düşməndən təmizləməkdədir. Biz başqasının torpağında vuruşmuruq və başqasının torpağını almırıq. Belə olan halda, bu təcavüz adlandırıla bilməz. Azərbaycan xalqı uzun illərdir işğal olunmuş doğma torpaqlarının həsrətindədir. İnsanlar beynəlxalq təşkilatların, həmsədr dövlətlərin qərarlarına, vədlərinə hörmətlə yanaşaraq torpaqların sülh yolu ilə, ədalətlə həll olunmasına ümid etmiş, ancaq öz inamlarında yanılmışlar. BMT Təhlükəsizlik Şurası, nə də ATƏT - in Minsk qrupu münaqişənin həllinə lazimi təşəbbüs göstərməmiş, əksinə bir çox hallarda təcavüzkar Ermənistana dəstək vermişdir. Bu Ermənistanın hərbi - siyasi rəhbərlərini, qondarma "Dağlıq Qarabağ Respublikasının" quldurlarını daha da həyasızlaşdırmış, qudurtmuş və onlar yeni torpaqlar işğal etmək eşqinə düşmüşlər. Paşinyan da bildirmişdir ki, Qarabağ Ermənistandır, biz torpaqları geri qaytarmaq fikrində deyilik və bu münaqişənin diplomatik həll yolu yoxdur.

Komitə sədri söyləyib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Ermənistan rəhbərlərini dəfələrlə sülhə, danışıqlara dəvət etsədə, Ermənistanın təcavüzkar siyasəti barədə bütün dünyaya səslənsədə təcavüzkar öz yolundan dönməmiş və onun haqqında tədbir görən olmamışdır: "Prezidentimiz müsahibəsində xatırlatmışdır ki, "Azərbaycan BMT Təhlükəsizlik Şurasının 27 il ərzində qalan qətnaməsini icra edir". Əlbəttə ki, ordumuz öz sözünü deməli, gücünü göstərməli, düşmənin payını verməli idi və bu gün düşmənin lazimi dərsini verir. Biz haqqımızı istəyirik, torpaqlarımızı işğaldan azad edirik, terrorçulara, qaniçənlərə, təcavüzkarlara qarşı mübarizədəyik. Bu nə təcavüz, nə də soyqırımdır. Əslində soyqırımı ermənilər törədir, mülki əhalini qətlə yetirir, dinc şəhərlərimizi , kəndlərimizi raket atəşinə tutur, qadağan olunmuş silahlardan istifadə edirlər. Ancaq bu xalqımızı, ordumuzu qorxutmur, mübarizliyimizi artırır, qələbələrimizi daha da yaxınlaşdırır. Sözsüz ki, qələbədən sonra erməni təcavüzkarları törətdikləri vəhşiliklərin cəzasını alacaq, haqq qarşısında cavab verəcəklər. Haqq bizimlədir. Qarabağ Azərbaycandır!".

## Zelenski Ermənilərin fosfor bombası ilə bağlı iddisını rədd etdi



Zelenski Azərbaycana fosfor bombaları tədarükü ilə bağlı Sarik Andreasyanın açıqlamalarını rədd edir. SİA xəbər verir ki, bu barədə RİA Novosti məlumat yayıb. Məlumatda bildirilir ki, Ukrayna Prezidenti Vladimir Zelenski, rus-erməni rejissoru Sarik Andreasyanın Kiyevin Dağlıq Qarabağdakı döyüşlər üçün Azərbaycan tərəfinə fosfor bombaları verməsi barədə iddialarını rədd edib. Xatırladaq ki, bir qədər əvvəl Andreasyan, Dağlıq Qarabağdakı müharibə səbəbindən Zelenskiyə müraciət edib və rəsmi Kiyevin Azərbaycana fosfor bombaları satmasını iddia edərək, erməni uşaqlarının ölümündə Zelenskini günahlandırıb.

"Ukrayna, ümumiyyətlə heç vaxt, heç bir yerə, xüsusilə geosiyasi məsələlər olan qaynar nöqtələrə fosfor bombası verməmişdir", deyə Zelenski öz Telegram səhifəsində yazıb.

***İnam Hacıyev***

## Ermənistanı etiraz aksiyaları bürüyür:
## Hökumət qəzəbli xalqa cavab verməkdə acizdir!

Qarabağdakı döyüşlərdə hər gün çoxlu sayda canlı qüvvə itirən Ermənistanda etiraz aksiyaları səngimək bilmir. Hər gün yaxınlarının ölüm xəbərlərini alan ailələr isə artıq ümidsizliyə düçar olub. Demək olar ki, hər gün paytaxt Yerevanın müxtəlif ərazilərində etiraz aksiyaları keçirən ailələr bu dəfə məkan kimi Birləşmiş Millətlər Təşkilatının ofisinin qarşısını seçiblər. Xezerxeber.az-ın məlumatına görə, ötən gündən etibarən yaxınlarını Qarabağda itirən onlarla ailə BMT nin Yerevandakı nümayəndəliyinin girişini bağlayıb və müharibənin dayandırılması üçün bu təşkilatın hərəkətə keçməsini istəyiblər. Qəzəbli ailələr sərt formada çıxışlar edərək bu təşkilatı müharibəyə etinasız yanaşmaqda ittiham ediblər. Politoloq Murad Sadəddinovun fikrincə, erməni ailələrin belə bir tələbi BMT dən istəməsi absurrdur. Onun sözlərinə görə, əgər ermənilər yaxınlarını itirmək istəmirlərsə, övladlarının sağ-salamat geri çağırılmasını öz baş nazirlərindən və digər siyasi rəhbərlərdən tələb etməlidirlər.

Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərini işğaldan azad etmək üçün müharibə aparır və bu işdə hansısa beynəlxalq təşkilat ölkəmizdən əməliyyatları saxlamağı tələb edə bilməz. Xezerxeber.az mövzu ilə bağlı daha ətraflı videomaterialı təqdim edir:

## Xocalı soyqırımının ən fəal iştirakçısı erməni polkovnik vuruldu



Xocalı soyqırımının ən fəal iştirakçısı olan erməni polkovnik vuruldu. SİA xəbər verir ki, "Aramo" adlı terror taborunun komandiri polkovnik Aram Torqomyan Dağlıq Qarabağda gedən döyüşlərdə ağır yaralanıb.



# Paşinyan Ermənistanı qurban verməyə hazırdır



***Dağlıq Qarabağda hərbi eskalasiyanın növbəti mərhələsi 1 aydan çoxdur ki davam edir. İrəvan Rusiyanın vasitəçiliyi ilə Bakı ilə aparılacaq danışıqlardan imtina edir. Son əsgərədək müharibə- Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsinin həllinə bu şüar altında yanaşdığını bəyan edir.***

Uzun illər öz dövlətçiliyini qurmaq və qonşu ölkələrlə münasibət qurma konsepsiyasının olmaması ilə müşayiət olunan hakimiyyətin zəifliyi və qeyri-müəyyənliyi Ermənistanı müharibə vəziyyətinə gətirdi və hazırkı mərhələdə ölkənin siyasi, hərbi, iqtisadi və ideoloji sisteminin çöküşünə səbəb oldu. 25 il ərzində klan gücü və ona bağlı bürokratik aparat sayəsində erməni ictimaiyyətinin Qarabağla bağlı danışıqlarda İrəvanın mövqeyinə sədaqəti təmin edildi. Ermənistanın hər yerində və sərhədləri xaricində milli diaspora arasında səslənən qarşıdurma fikri sabitlik və konsolidasiya amilinin axtarışında və hüquqi baxımdan hərbi təcavüzü və işğalı qanuniləşdirmək üçün hüquqi mexanizmlərin axtarılmasından ibarət idi. Bu nəyə gətirib çıxardı?

Birincisi. Ardıcıl rejimlərin siyasi populizmi metodik olaraq cəmiyyətin diqqətini daxili iqtisadi və siyasi problemlərdən yayındırır. Ermənistanda cəmiyyətin etno-demoqrafik quruluşunda və bununla əlaqədar istehsal sistemlərinin və əmək bazarının transformasiyasında nəzarətsiz bir dəyişiklik var.

İkincisi. Xalqlar arasında düşmənçiliyin ağırlaşması, qonşulara qarşı əsassız təcavüz ittihamları və işğalın nəticələrini tanımaq istəməməsi, İrəvanın Qarabağ ərazisindəki erməni və azərbaycanlı icmalarının dinc yaşaması üçün şərait yaratma məsuliyyətindən azad olmasına imkan verir. Sadəcə olaraq, İrəvan üçün Bakını bütün günahlarda ittiham etmək, bölgədəki təhlükəsizlik mexanizmlərini hazırlamaq üçün geniş səviyyəli bir əlaqə qrupu yaratmaqdan daha asan olmuşdur.

Üçüncüsü. Müharibə diaspora fondlarını işğal siyasətini dəstəkləmək üçün, o cümlədən Ermənistanın özünün cari xərclərini ödəmək üçün cəlb etməyə imkan verdi.

Paşinyanın nəyə görə Azərbaycanın hərbi üstünlüyü şəraitində sonuncu əsgərədək müqavimət taktikasını seçdiyini anlamaq çətindir. Yəqin ki, Ermənistan baş naziri ABŞ-dakı separatçıların maraqlarını dəstəkləyən lobbiçilərə ümid edərək vaxt qazanmağa çalışır. Ancaq indi prezidentlik kampaniyasının son mərhələsidir, buna görə İrəvan Amerika diasporasının tam köməyinə ümid edə bilməz.

Paşinyanın hakimiyyəti dövründə Ermənistan-Rusiya münasibətləri açıq-aydın soyudu və İrəvanın Qarabağ münaqişəsinin həllində KTMT-nin dəstəyinə arxalanmağa haqqı yoxdur.

Bu gün Paşinyan qarşısında bir seçim dayanır: Qarabağın müddətsiz işğalı və ya işğaldan azad edilməsinə dair danışıqların başlanması, bunun sayəsində insan itkisinin qarşısını almaq mümkündür. Baş nazir yəqin ki, ilk variantı seçəcək, çünki Qarabağ cəbhəsində baş verən hadisələrin dinamik xarakteri, bir növ siyasi liderlərin və klanların eyforiyası, azadlıq və hakimiyyət uğrunda mübarizə ehtirası şüuruna qapılaraq qonşularla barışıq məsələsini arxa plana keçirtdi.

Lakin bu yolla, erməni hakimiyyət orqanları Qarabağ böhranının Ermənistanın özündə kəskin bir sosial problemə çevrilə biləcəyinə şərait yaradır. Ölkənin yaxın gələcəkdə üzləşəcəyi dövlət strukturlarının böhranı humanitar bir çöküşə çevrilə bilər.

İrəvan beynəlxalq təcrid vəziyyətində ola bilər, çünki Ermənistan rəhbərliyi öz xalqını etnik ərazi mafiyası strukturlarının mənafeyinə qurban verməklə həm ən yaxın tərəfdaşlarını, həm də çox milyonluq diaspor nümayəndələrini itirmək riski ilə üzləşir.

Mixail Borisov / Vestikafkaza.ru

*Tərcümə etdi: Elçin Bayramlı*

# "Təəssüf ki, dünya Azərbaycanlı uşaqların qətlinə susur"



*Jalə Əliyeva*
*Milli Məclisin Ailə, Qadın, Uşaq məsələləri komitəsinin sədr müavini*

***Qarabağ məsələsində bu günə qədər mövcud olan "ikili standartlar" bu məsələdə də özünü göstərir. Bir ay ərzində həyata keçirilən təxribatlar, döyüş bölgələrindən uzaqda yerləşən şəhər və qəsəbələrimizdəki dinc əhaliyə qarşı törədilən hərbi cinayətlər nəticəsində 36 uşaq müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 11 uşaq qətlə yetirilib. Erməni terrorçularının dinc sakinlərə hücumu davam etdikcə bu rəqəmlər də dəyişir.***

Çox təəssüf olsun ki, 30 ildən bəri davam edən erməni aqressiyası və iddiaları, ədalətsiz müharibənin nəticələri qarşısında ötən müddətdə olduğu kimi, bu gün də bir çox dünya ölkələri, beynəlxalq təşkilatlar, hətta birbaşa bu problemin həlli ilə bağlı məsul olan ATƏT-in Minsk qrupu kimi təşkilatlar, onun həmsədrləri səslərini çıxartmadılar. Bu illər ərzində yalnız bölgəyə turist səfərləri edib növbətçi bəyanatlarını verməklə öz vəzifələrini bitmiş hesab etdilər. Bu gün də 34 gündür ki, erməni təxribatı qarşısında Azərbaycanın əks hücumları böyük uğurla davam edir, zəfərlə irəli addımlayırıq. Bu nailiyyətlərdən təşvişə düşən Ermənistanın siyasi və hərbi rəhbərliyi cavabı münaqişə bölgəsində ordumuza vermək yerinə, cəbhə bölgəsindən çox uzaqda olan tamamilə dinc əhalinin yaşadığı, ölkənin əhəmiyyətli , strateji və qədim şəhərləri olan Gəncə, Bərdə, Mingəçeviri, daha öncədən isə Tovuzu, hətta Naxçıvanın Ordubad şəhərini vurmağa başladılar. Onların içində xüsusən də son günlər Gəncəyə ard-arda ballistik raketlərdən atəşlər və son olaraq Bərdədə bazar mərkəzinə atılan kaset tipli bombalar, onun nəticəsində çox sayda insanın həyatını itirməsi və yaralanması ilə nəticələndi. Təəssüf ki, ölən və yaralananların içində həyatını itirən, xəsarət alan uşaqlarımız var, hər iki valideynini, valideynlərindən birini itirən uşaqlarımız var. Bu uşaqların hamısının taleyi qırılıb, bundan sonrakı ömürləri böyük bir psixoloji travma ilə keçəcək. Onların uşaqlıqları beşiyindəcə boğulub. Onlar yatdıqları yerdə, evlərində dinc oturarkən qətlə yetiriliblər. Başqa vaxtlarda dünyaya demokratiya dərsi keçən, barmaq silkələməyi bacaraq Avropa beynəlxalq qurumları bu gün ermənilərin yanındadır, ermənipərəst mövqe ortaya qoyurlar. Birbaşa uşaq hüquqları ilə məşğul olan UNİCEF uzun illərdən və son bir aydan sonra ilk dəfə dünən bəyanat yayıb. Lakin təəssüf ki, yenə də heç bir təsir gücünə malik olmayan, növbətçi,, dişsiz bir bəyanat... Bu uşaqlar kimdirlər, hansı ölkəyə aiddirlər, heç ad və soyadları, yaşları qeyd olunmur, hadisənin harada baş verməsi qeyd olunmur. Nədir bu ikili mövqenin səbəbi, haqsızın yanında olmanın səbəbi?

Bu gün beynəlxalq təşkilatların göz yumduğu terror sərhəd tanımır və sabah digər ölkələrə qarşı da törədilə bilər. BMT-nin uşaq hüquqları ilə bağı konvensiyası var. Uşaq hüquqları ilə bağlı konvensiyanın 38-ci maddəsi 15 yaşına qədər uşaqların müharibəyə cəlb edilməsini, onlardan istifadə edilməsini, onların həyatına təhlükə yaranmasını cinayət hesab edir. Ən azı buna əsaslanaraq səslərini çıxartmalıdırlar . Dünya bu qədər səssiz qala bilməz. Anlamalıdırlar ki, bu gün Azərbaycanın, İslamın, türkün gücündən qorxuya düşərək hücum edən Ermənistan və onların havadarları istənilən ölkəni nişan ala bilərlər. Çünki terrorun sərhədi yoxdur, məhdudiyyət tanımır, kimlik tanımır. O zaman bu güllələr, ballistik raketlər digər ölkələrə yönələ bilər. Bütün dünya, xüsusən də özlərini insan hüquqlarının carçısı hesab edən ölkələr duyarlı olmalı, Azərbaycanın haqlı mübarizəsinin yanında dayanaraq öz səslərini qaldırmalı, aqressora "dur" deməyi bacarmalıdırlar. Dur deyərkən bunu Azərbaycana da şamil edirlər, ancaq Azərbaycan heç kimin torpağına hücum etməyib, öz torpağında savaşır, öz vətəndaşlarını qoruyur və haqlı bir vətən müharibəsi aparır.

# Satik Seyranyan: "Paşinyanın qarşısıalınmaz kompleksi var"



***Medianın inzibati təzyiqi bəzi media qurumları üçün başqa bir həyati məsələ halına gəlib. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Jurnalistlər Birliyinin sədri Satik Seyranyan, Ermənistan prezidentinə, parlament qüvvələrinə göndərdiyi bir məktubda, Ermənistan hökumətinin qurduğu şərtlərə etiraz etmək üçün Konstitusiya Məhkəməsinə müraciət edəcəyini bildirib.***

"Cəmiyyəti həyat və təhlükəsizliyi ilə əlaqəli mövzularda çox ehtiyac duyulan mübahisələrdən, görüşlərdən və məmurların çatışmazlıqlarını tənqid etməkdən məhrum edən bu qeyri-mütənasib məhdudiyyətlər, siyasi məqsədəuyğunluq səbəbiylə gerçəkliyin tək tərəfli diktəsindən başqa bir şey deyil", deyə birliyin məktubunda bildirilir. Satik Seyranyanın məktubuna cavab olaraq "Parlaq Ermənistan" fraksiyasının rəhbəri Edmon Marukyan dördüncü hakimiyyətin cərimələnən nümayəndələrinə alternativ həll təklif edib.

Məlumatda qeyd olunur ki, Ermənistan hakimiyyəti söz azadlığını məhdudlaşdırma yolunu seçib və demokratiya, söz azadlığı uğrunda mübarizədən dəm vuran ölkədə vətəndaş məlumat almaq hüququndan məhrum edilməməli və KİV-lər məlumatları çatdırmalıdır. Bildirilir ki, amma bu hökumətin əsas rəqibi, Nikol Paşinyandır, onun qarşısıalınmaz kompleksi var və o məlumat vermək hüququnu yalnız özündə saxlayır.

***İnam Hacıyev***

ANALİTİK

# Ermənistan beynəlxalq konvensiyaları necə pozur?

## Yaxud, Röyter agentliyinin apardığı araşdırma qarşı tərəfin ifşasına səbəb olub

***Qarabağda hərbi əməliyyatlar başladığı andan ermənilərin təbliğat maşını bütün dünyaya yalan sırımağa çalışırdılar ki, guya Azərbaycan ordusunun tərkibində suriyalı və s. muzdlular döyüşürlər. Lakin buna baxmayaraq, bəzi dünya ölkələrinin bir sıra rəsmiləri yayılan dezinformasiyalara dəstək göstərsələr də, bu vaxta qədər heç bir dəlil, sübut ortaya qoya bilməyiblər. Bununla yanaşı, Azərbaycan tərəfi qəti olaraq muzdluların döyüşməsi iddialarını rədd edib, habelə bunun ümumiyyətlə mümkünsüz olduğunu vurğulayıb.***



Lakin erməni tərəfinin dezinformasiyalarından fərqli olaraq, Azərbaycan tərəfi sübut, dəlil və danılmaz faktlarla sübuta yetirirlər ki, Ermənistanın silahlı qüvvələrinin tərkibində PKK/PJK və digər terror təşkilatının üzvləri, Yaxın Şərq ölkələrindən olan terrorçular, eləcə Avropanın qanunsuz şəkildə fəaliyyət göstərən müxtəlif ultra-radikal millətçi - xristian təşkilatlarının muzdluları döyüşürlər.

Başqa tərəfdən, daha bir fakt budur ki, Ermənistandan fərqli olaraq, Azərbaycanda qismən səfərbərlik elan edilib. Belə ki, buna daha bir səbəb ən müasir hərbi texnikaların, silah-sursatların mövcudluğu və digər mühüm amillərdir.

### Argentinadan, ABŞ-dan Ermənistana hərbi hazırlıq keçmək üçün yüzlərlə adam gəlib

Bu arada ermənilərin tərkibində muzdluların döyüşməsini isbatlayan daha bir fakt Röyter agentliyi tərəfindən ifşa olunub. SİA xəbər verir ki, adıçəkilən informasiya agentliyinin yazdığına görə, Qarabağda, erməni ordusunda erməni mənşəli Livan vətəndaşları döyüşürlər. Misal üçün, yazılan məqalələrdən birində deyilir. SİTAT: “Livanda maliyyə böhranı başladıqdan sonra Vartkes bu yay Ermənistana köçməyə məcbur oldu. O, həmin vaxt xəyalına belə gətirmirdi ki, Dağlıq Qarabağa müharibəyə yollanacaq. Lakin gənc livanlı erməni azərbaycanlılarla ermənilər arasında başlanan münaqişə ərəfəsində iki dəfə düşünə bilmədi...”.

Sözügedən yazıda Ermənistanın müdafiə nazirliyinin məmuru dəqiq rəqəm təqdim etmədən xəbər verib ki, diasporun bir çox nümayəndələri hərbi əməliyyatlarda könüllü şəkildə iştirak etmək üçün ərizələrlə müraciət ediblər. Onun sözlərinə görə, Argentinadan, ABŞ-dan Ermənistana hərbi hazırlıq keçmək üçün yüzlərlə adam gəlib.

Məqalədə bildirilir ki, Livanın erməni icmasının sayı 140 000-ə yaxındır və dünyanın ən böyük icmalarından hesab olunur. Karapet Aqacanyan yerli və xarici könüllülərə hərbi hazırlıq üzrə təlimatçıdır və 10 nəfər Livan ermənisi onun düşərgəsində hərbi hazırlıq keçiblər. Onun sözlərinə görə, həmin ermənilər sentyabrda hərbi əməliyyatlar başlayandan sonra Beyrutdan gəliblər və ön cəbhəyə getməyə hazırlaşırlar. Bununla yanaşı, o da məlum olub ki, bir çox ermənilər hələ hərbi əməliyyatlar başlamamışdan əvvəl Beyrutdan İrəvana köçüblər.

Yazıda bildirilir ki, Livan parlamentinin deputatı, “Erməni inqilab federasiyası” partiyasının rəhbəri Akop Pakradunyanın xüsusi olaraq könüllülərin Livandan Ermənistana göndərilməsi üçün hər hansı bir fəaliyyətin aparılmasını inkar etməsinə baxmayaraq, onun növbəti sözləri düşünməyə vadar edir: SİTAT: “Əvvəl-axır biz mane ola bilmərik. Biz onların fikirlərini dəyişdirmək istəyirik, ancaq bu da mümkün deyil, onların impulsları belədir. Bu, erməni xalqı üçün ekzistensial müharibədir, ona görə də gənc adamlar oraya gedirlər”.

### Təəccüblü deyil ki, beyinlərinin yuyulması prosesindən sonra gənc erməni uşaqları müharibəyə tələsirlər

Ola bilər ki, rəsmi erməni təşkilatları muzdluların Qarabağa verbovkası və göndərilməsi prosesində iştirak etmirlər. Röyterin jurnalistləri öz məqalələrində qeyd ediblər ki, Beyrutun əsas avtomagistrallarında nəqliyyat vasitələrinin üzərində ermənilərə aid şüarları müşahidə ediblər. Təəccüblü deyil ki, beyinlərinin yuyulması prosesindən sonra gənc erməni uşaqları müharibəyə tələsirlər.

Məqalənin davamına isə muzdlulardan istifadə məsələsi daha çox qabarıq görünür. Müəlliflər yazırlar ki, hətta livanlı ermənilərin öz “qəhrəmanları” da var. O, Livanın Ancar şəhərinin sakini, Qarabağ müharibəsində öldürülən opera müğənnisi Gevork Xacyandr. Onun 74 yaşlı anası Sosse Xacyan televizorda günlərlə müharibədə baş verənləri izləyir, öldürülən erməni hərbçilərinə ağlayırdı. Ancaq qardaşı deyənə qədər bilmirdi ki, oğlu da Qarabağa gedib.

Bu arada onu da qeyd etmək yerinə düşərdi ki, Röyterin müxbirləri öz məqalələrində hər hansı bir tərəfi tutmayıblar, ancaq unudublar ki, müasir dünyada etnik məsələ mühüm hüquqi kateqoriya hesab oluna bilməz. Lakin vətəndaşlıq tamamilə başqa bir məsələdir. Məhz bu və ya digər şəxsin vətəndaşlıq amili onun muzdludur, yoxsa muzdlu olmaması məsələsini ortaya çıxarır.

### Cenevrə konvensiyasının 1977-ci ildə imzalanmış protokolu nədən xəbər verir?

Məsələn, Cenevrə konvensiyasının 1977-ci ildə imzalanmış protokolunda məxsusi olaraq yerində, ya da sərhəd hüdudlarından kənarda verbovka olunmuş, eləcə də faktiki şəkildə hərbi münaqişəyə cəlb edilmiş şəxs həmin ölkənin vətəndaşı deyilsə, yaxud bu ölkədə davamlı qeydiyyatı yoxdursa muzdlu hesab edilir. Yəni Ermənistanın vətəndaşı olmayan istənilən şəxs Qarabağda erməni cinahında vuruşursa, artıq o muzdlu sayılır. Bu baxımdan, həmin şəxsin etnik mənsubiyyəti heç bir rol oynamır. Bunu qəbul olunmuş qanun da diktə edir.

Digər tərəfdən, beynəlxalq humanitar hüquq da muzdlular barədə dəqiq qərara malikdir. Belə ki, muzdlular kombatant hesab edilmədiklərinə görə, hərbi əsir statusuna malik ola bilməzlər. Bu, həm də o mənanı daşıyır ki, muzdlu şəxs hərbi münaqişədə iştirakına görə əsir düşdüyündə cinayət məsuliyyəti daşıyır və eyni zamanda əsir düşdüyü halda onun rəsmi şəkildə əsir kimi saxlanılması şəraiti nəzərə alınmır.

### Azərbaycanın gözündə tük axtarmaqdansa, Ermənistanın gözündəki tiri görməlidirlər

Beləliklə, ermənilər özlərinin “dahi, qədim və qəhrəman xalq” mifləri barədə digər ölkələrdəki erməni soydaşlarının beyinlərini yuyarkən, bir az da düşünməlidirlər. Düşünməlidirlər ki, dünyanın kilometrlərlə uzaqlarından gəlib “mən də erməniyəm” deyərək, əlinə silah alıb Qarabağda - onlara məxsus olmayan torpaqlarda terror törətmələrinin acı, ağır və dəhşətli nəticələri də var.

Məhz bütün bunların təhlilini apararkən, artıq beynəlxalq ictimaiyyət də işğalçı, terrorçu Ermənistanın bütün qanunları, konvensiya tələblərini pozması faktlarını araşdırmalıdır. Daha dəqiq desək, Azərbaycanın gözündə tük axtarmaqdansa, Ermənistanın gözündəki tiri görməlidirlər. Ən əsası, bir sıra xarici KİV-lər bu reallığı dərk etməlidirlər.

*Rövşən RƏSULOV*



# “Ermənistan nəhayət bilməlidir ki,..”

***“Son 27 ildə atəşkəs rejimi dövründə dəfələrlə hərbi təxribatlarla, Azərbaycanı müharibə ilə təhdid etməklə danışıqlar prosesini pozmağa çalışan Ermənistan hər dəfə layiqli cavabını almışdır. Bu gün isə illərdir danışıqların imitasiyasını həyata keçirən rəsmi İrəvanın siyasəti artıq ifşa olunub”. Bunu SİA-ya millət vəkili Anar Məmmədov deyib.***

Deputatın sözlərinə görə, siyasi müstəvidə qeyri-konstruktiv yanaşma nümayiş etdirən təcavüzkar Ermənistan hakimiyyəti hərb meydanında başından elə bir zərbə alıb ki, artıq yeni yaranmış reallıqlar haqda düşünməlidir: “Bildiyimiz kimi son zamanlarda siyasi qarşıdurma, hərc-mərcliyin hökm sürməsi, revanşist meyllərin güclənməsi, Paşinyan hakimiyyətinin iflasa uğraması kimi hallar işğalçı dövlətdə ciddi problemə çevrilməyə başlamışdı. Sentyabrın 27-dən etibarən isə Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində bölgədə vəziyyətin gərginləşməsi Ermənistanın sosial media və onlayn resurslarında olan neqativlərin qabardılması, iqtisadi tənəzzül, sosial fəlakətin son həddə çatmasına gətirib çıxardı. Nəticədə isə vəziyyətdən çıxış yolu kimi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan işğalçı dövlətin hərbi və siyasi rəhbərliyi indi də başqa bir cinayətə əl ataraq Azərbaycana qarşı həyata keçirdiyi hərbi əməliyyatlara 15 yaşına çatmayan uşaqları, muzdluları və yaraqlıları, əcnəbi vətəndaşları, hətta silah götürməyin qadağan olunduğu adventistləri zorla orduya cəlb edir. Bununla da biz Paşinyan rejiminin təcavüzkarlıq, işğalçılıq mahiyyətini açıq şəkildə görürük. Bu, bir daha göstərir ki, Azərbaycanın döyüş meydanında uğur əldə etməsi ermənilərin müharibədən yayınmaq üçün min bir çıxış yolu axtarmasına gətirib çıxarıb. Bütün bunlar isə Ermənistan ordusunda ciddi qorxuya və psixoloji pozuntuya səbəb olub. Ön cəbhəyə göndərməyə artıq resurs yoxdur. Digər tərəfdən, orduda yaranan xaos səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması adi xarakter daşıyır. Ağır itkiləri görən sadə əsgərlər belə döyüşlərə qatılmaqdan imtina edirlər. Ümumiyyətlə isə, birmənalı şəkildə təsdiq etmək olar ki, ermənilərin itkiləri kifayət qədər çoxdur. Bunu sosial şəbəkə hesablarında ermənilərin özləri də etiraf edirlər. Lakin Ermənistan tərəfi ölkə ictimaiyyətinin ayağa qalxmaması üçün ölüm halları ilə bağlı iri rəqəmləri birdən-birə açıqlamır, həmişə olduğu kimi, yenə də riyakar üsullara əl atmalı olur

Azərbaycan Ordusu isə heç kimin ərazisinə hücum etməyib və öz ölkəsinin sərhədlərini qoruyur. Bu yolda böyük qəhrəmanlıqlar, şücaətlər göstərir. Təcavüzkarı isə lazımınca cəzalandırır. Ermənistan nəhayət bilməlidir ki, indi keçən əsrin 90-cı illəri deyil və bundan sonra onu istər Qarabağ, istərsə də digər cəbhələrdə yalnız məğlubiyyət gözləyir”.

*Ceyhun Rasimoğlu*

# Şuşan Stepanyan: “İdentfikasiya problemimiz var”



***Ermənistan tərəfi son dörd gündə itki vermədimi və bu niyə gizlədilir? SİA xəbər verir ki, bu barədə “Hraparak” qəzeti yazır.***

Qəzet yazır ki, dörd günlük susqunluqdan sonra Ermənistanın Ordusu dünən döyüşlərdə ölən cəmi 11 hərbçinin adını açıqladı. Həmçinin nəşr qeyd edir ki, bu barədə məlumat verməzdən əvvəl, Müdafiə Nazirliyindən soruşulub ki, Ermənistan tərəfi son dörd gündə heç bir itki verməyibmi və nəyə görə hər hansı bir səbəbə görə qurbanlarla bağlı məlumat dörd gün verilməyib?

“Bizim identfikasiya problemimiz var”, deyə Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan bildirib. Qəzetin yazdığına görə, həqiqət budur ki, sosial şəbəkələrdə əhali arasında ümidsizlik yaratmamaq üçün qurbanlar barədə gündəlik məlumat verilməməsi haqda aktiv müzakirələr aparılır. Xatırladaq ki, Ermənistanın Müdafiə Ordusu 1172 nəfər hərbçinin adını açıqlayıb. “Şəxsiyyəti məlum olmayan cəsədlər var, onlarla əlaqəli şəxsiyyət müəyyənləşdirmə əməliyyatları aparılır.”, deyə bildirilir.

*İnam Hacıyev*

# Qarabağın altında nələr baş verir?



***Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində təbii sərvətlərimizi talan etməsi, bu prosesdə xarici şirkətlərin iştirakına dair çoxsaylı faktlar var. Hələ 90-cı illərdən bununla bağlı faktlar yerli və xarici mediada işıqlandırılıb. Azərbaycan Ordusunun Qarabağı işğaldan və terrorçulardan azad etməsi nəticəsində bu cinayətə və talançılığa son qoyulur.***

Bu cinayət faktı ilə bağlı Azərbaycan prokurorluğunda cinayət işləri açılıb. Məsələn, Azərbaycanın işğal olunmuş Laçın, Kəlbəcər və digər rayonlarının ərazilərində xarici dövlətlərin erməni əsilli vətəndaşları olan şəxslərin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsində 21.10.2015 və 30.03.2018-ci il tarixlərdə Cinayət Məcəlləsinin 192.2.3 (qanunsuz sahibkarlıq) və 318.2-ci maddələri ilə (dövlət sərhədini qanunsuz keçmə) cinayət işləri başlanıb. Həmin cinayət işlərindən biri- işğal olunmuş, lakin Milli Ordumuzun uğurlu əməliyyatları nəticəsində son günlərdə işğaldan azad edilən Zəngilan rayonunun Vejnəli kəndi ilə bağlı olub. Bu məsələ ilə bağlı dəfələrlə beynəlxalq təşkilatlara müraciət edilib. Lakin buna qarşı heç bir reaksiya olmayıb.

Ümumilikdə, işğal olunmuş Azərbaycan torpaqlarında 160 müxtəlif qiymətli metal yatağı qalıb. Kəlbəcər, Laçın, Zəngilan, Tərtərdəki qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daşlar və digər yataqları mövcuddur.

Ermənistanın ixracında mühüm yer tutan dağ-mədən məhsulları sırasındakı qızıl, mis, sink filizləri və konsentratlarının, həmçinin qiymətli metalların konsentratlarının xeyli hissəsinin Azərbaycanın işğal olunmuş ərazilərindəki Söyüdlü (Zod), Qızılbulaq, Vejnəli qızıl, Mehmana polimetal və Dəmirli mis-porfir yataqlarından hasil olunur.

İşğaldan azad olunmuş Zəngilan rayonun ərazisində yerləşən Vejnəli qızıl yatağı kvars-qızıl-sulfid tərkibli damar geoloji-sənaye tipinə aid edilir. Yataqda 25 sayda qızıl saxlayan kvars damar zonaları öyrənilib, 14,15,16,19,21 və 24-cü zonalar üzrə C1+C2 kateqoriyası ilə ehtiyatlar hesablanılıb. Yataq 1959-1962-ci illərdə Vejnəli geoloji-axtarış partiyası tərəfindən kəşf edilib. 1962-1971,1976-1981 və 1983-1984-cü illərdə geoloji-axtarış və kəşfiyyat işləri aparılıb.

Vejnəli qızıl yatağı 1984-cü ildə Məhəlli Ehtiyatlar Komissiyasında təsdiq olunaraq Azərbaycan Respublikası Faydalı Qazıntı Ehtiyatlarının Dövlət Balansına qəbul edilib.

Təsdiq edilmiş ehtiyatlar: C1 kateqoriyası üzrə filiz- 183 min ton, qızıl- 2,169 ton; C2 kateqoriyası üzrə filiz- 433 min ton, qızıl- 4,347 ton təşkil edib. C1 kateqoriyası üzrə gümüş- 0,19 ton; C2 kateqoriyası üzrə gümüş- 9,9 ton təşkil edib. C1 kateqoriyası üzrə mis- 0,2 min ton; C2 kateqoriyası üzrə mis- 2,8 min ton təşkil edib.

Azərbaycanda qızılçıxarma sənayesinin yaradılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının bir sıra qızıl yataqlarının kəşfiyyatı və işlənməsi barədə" 1996-cı il 5 fevral tarixli sərəncamına uyğun olaraq 1997-ci il avqustun 20-də keçmiş "Azərqızıl" DŞ ilə ABŞ-ın "RV Investment Group



Sevrvices LLS" arasında Gədəbəy, Qoşa, Ordubad qrupu (Piyəzbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektivli qızıl yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanıb. Lakin Söyüdlü (Zod), Qızılbulaq və Vejnəli yataqları ermənilərin işğalı altında olduğuna görə, həmin yataqlar üzrə işlərin aparılması mümkün olmayıb.

Ermənistan genişmiqyaslı talan əməliyyatına Fransa, Kanada, İsveçrə və digər ölkələrdən imkanlı erməni əsilli və ya erməni diasporu ilə əlaqələri olan iş adamları Azərbaycan ərazisində yataqların istismarına cəlb edilib. Bu cür kriminal biznes nümayəndələrindən biri də İsveçrənin dünyaca məşhur saat brendi "Franck Muller Group"un təsisçilərindən biri və baş direktoru Vartan Sirmakesdir.

V.Simakes 1956-cı ildə İstanbulda anadan olub və 18 yaşında İsveçrəyə köçüb. Hazırda İsveçrənin erməni diasporunun maliyyə donoru hesab olunan V.Sirmakes "ArmSwissBank" bankının təsisçisidir, bu ölkədə 7 brendə və 14 istehsalat müəssisəsinə sahibdir. O, Ermənistanda müxtəlif sahələrə böyük investisiyalar yatırır, rəhbərlərindən biri olduğu "Franck Muller" şirkəti dünyada yeganə nümayəndəliyini məhz Ermənistanda açıb. Keçmiş prezident Serj Sarqsyanın fərmanı ilə Ermənistanın Fransadakı Baş Konsulu təyin olunub və "Vətən qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilib. Yataqların istismarında nəinki xarici korporasiyalar, həm də ofşor zonalarda saxta şirkətlər yaratmaq yolu ilə Ermənistanın siyasi rəhbərliyi də iştirak etmişdir. Bu sıraya R.Koçaryan-S.Sarqsyan cütlüyü, keçmiş səfir və indiki prezident Armen Sarkisyan və baş nazir N.Paşinyan daxildirlər.

V.Sirmakesin Kəlbəcərin "Söyüdlü" və Zəngilanın "Vejneli" yataqlarından oğurlanan qızıl İsveçrə birjalarında satışa çıxarılır, qazanc isə elə həmin ölkənin banklarına yatırılır. Simarkes Azərbaycanın işğal olunmuş ərazilərində 999,9 əyyarlıq qızıl külçələrin satışı ilə məşğul olan bir sıra proqramların da əsas sərmayədarıdır.

2001-ci ildə "Franck Muller"in Ermənistandakı nümayəndəliyi açılan zaman şirkətin təmsilçisi bildirmişdi ki, burada saatların qızıl çərçivələri üçün 18 karatlıq qızıl və 550 əyyarlıq platindən istifadə olunacaq.

İsveçrəli biznesmen Ermənistanda qiymətli materialların emalı zavodunun inşasına hazırlaşdığı barədə də məlumatlar vardır. Onun zavodun tikilməsi planını 6 il əvvəl- 2014-cü ildə açıqlayıb və Ermənistan Mərkəzi Bankı ilə müvafiq memorandum da imzalayıb. Hasil edilən qızılı dünya bazarına çıxarmaq məqsədi ilə 2020-ci ildə Ermənistanda affinaj (qızıl emalı) zavodunun açılması nəzərdə tutulurdu. Əsas investor Vartan Sirmakesdir.

Rəsmi statistikaya görə, Ermənistandan ixrac edilən məhsulların böyük bir hissəsi Vartan Sirmakesin vətəni olan İsveçrəyə ixrac olunur. 2019-cu ildə Ermənistan məhsullarının ixrac edildiyi ölkələr sırasında ikinci ən böyük paya sahib olan ölkə məhz İsveçrədir- ixracda bu ölkənin payı 17.4% (457 milyon dollar) həcmində olub.

Azərbaycan ərazisində hazsil olunan qızıl resursları Ermənistana gətirilir, Ermənistanda müəyyən saflaşdırma mərhələsindən keçdikdən sonra üçüncü ölkələrin bazarlarına çıxarılaraq, orada satışı həyata keçirilir.

5 il əvvəl Azərbaycanın Baş Prokurorluğu Vartan Sirmakesə qarşı cinayət işi açaraq onu beynəlxalq axtarışa verib. İstintaq materiallarından aydın görünür ki, Azərbaycan tərəfi Sirmakesin qanunsuz iqtisadi fəaliyyəti və xüsusilə də, qızıl yataqlarının qeyri-qanuni istismarında iştirakı ilə bağlı kifayət qədər məlumat əldə edib. Bütün bu faktlar İsveçrə Konfederasiyası Baş Prokurorluğuna da təqdim olunub.

Azərbaycan Prezidentinin tapşırığına əsasən işğal olunmuş ərazilərimizdə Ermənistanın Azərbaycan vurduğu zərərlərin kompleks qiymətləndirilməsi aparılacaq. Vətəndaşların mülkiyyəti, infrastruktur, mədəniyyət abidələri və s. ilə yanaşı, həm də Azərbaycana məxsus təbii resursların qeyri-qanuni istismarı haqqında materiallar əsasında Ermənistanın Azərbaycan vurduğu zərərlər qiymətləndiriləcək, düşmən ölkənin, onun əvvəlki və indiki rəhbərlərinin, bu prosesdə iştirak edən xarici şirkətlərin, onların rəhbərlərinin məsuliyyətə cəlb olunması ilə bağlı bütün lazımi tədbirlər görüləcək.

Azərbaycan Ordusunun uğurlu əməliyyatı nəticəsində ərazilərimiz işğaldan azad olunur, xalqımıza məxsus milli sərvətlərimiz, o cümlədən Vejnəli qızıl yatağı onun özünə qaytarılır. Yaxın günlərdə azadetmə əməliyyatı başa çatacaq və bütün torpaqlarımızın yerüstü sərvətləri kimi, yeraltı sərvətləri də öz həqiqi sahibinə qayıdacaq- Azərbaycan xalqına və dövlətinə.

Qeyd olunanlardan belə nəticə çıxır ki, Qarabağın azad edilməsi isə erməni işğalından və istismarından xilas edilən faydalı qazıntı yataqları ölkəmizə çox böyük iqtisadi fayda gətirəcək. Bu yataqlardan əldə edilən gəlirlər Qarabağın bərpası və yenidənqurması üçün böyük töhfə verəcəkdir. Ermənistanın isə gəlirləri xeyli azalmış olacaq. Onsuz da iqtisadiyyatı dağılmış, defolt həddinə gəlmiş ölkə üçün bu daha bir sarsıdıcı zərbədir.

Üstəlik, Ermənistan Azərbaycana vurduğu azı yarım trilyonluq zərərə görə də cavab verməli olacaq və təzminat iddiası qaldırılacaq. Ölkəmiz artıq öz yüksəlişinin nəticələrini yaşamağa başlayacaq. Azərbaycan Prezidenti İlham Əliyevin 17 illik gərgin zəhmətinin nəticəsi olaraq dövlətimizin bu gün yenidən qurulmasının- həm də bu dəfə tam formasında- əsası qoyulur. 2021-ci il Azərbaycanda yeni dövlət, yeni ölkə, yeni cəmiyyət görəcəyik.

***Elçin Bayramlı***



# Qorxaq və şərəfsiz "yan"lar

**RƏFİQƏ**

***"Hər şər işdə bir xeyir var" deyib atalarımız. Çünki bu "paşolyanlar" tarixən quyruqlarını qısaraq hürən qorxaq it rolunda çıxış ediblər. Həm də min sifətlə, yaltaqlıqla, qorxaqlıqla, xəyanətkarlıqla sürünüblər, qarşılarına güclü birisi çıxdıqda isə quyruqlarını qısaraq qaçıblar. Ermənistanın "yanları" tək Azərbaycan xalqına qarşı deyil, bütün xalqlara qarşı xəyanətkar olublar. Hətta zaman-zaman iplərini əllərində saxlayan ruslara və onların dövlətinə qarşı da baş qaldırıblar və hər dəfə də ağır şəkildə cəzalandırılıblar. Bir də erməni xalqı Allah-Təala tərəfindən lənətlənmiş bir xalqdır və lənətləndikləri üçün də xain və quduz olublar. Quduzlaşa-quduzlaşa olmayn "papaqlarını", şalvarlarını, hətta arvad-uşaqlarını belə qoyub qaçırlar. Qoy, onların papaqları həmişə belə başsız qalsın.***

Dahilərimiz də bu papaqsız, hətta arvad-uşaqlarının qoyan bu satqın, şərəfsiz, quldur ermənilər haqda deyiblər ki, şərəfsizdilər.

K.MARKS: "Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur".

İngilis səyyahı VİLSON: "Ermənilər acgöz və tamahkardırlar. Onlar istənilən bir cəfəngiyatı böyütmək üzrə abırsız dərəcədə mahirdirlər və intriqaları sevirlər".

Gürcü yazıçısı SERQİ SACAYA: "Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır".

Amerika tarixçiləri CASTİN VƏ KEROLİN MAKKARTNİLƏR: "Ermənistanın müasir ərazisi ermənilərə deyil, azərbaycanlılara məxsusdur. Məhz buna görə Ermənistan ərazisində coğrafi adların böyük hissəsi azərbaycanlılara aiddir".

ERMƏNİLƏR ÖZLƏRİ HAQQINDA

Erməni tarixinin atası sayılan MOVSES XORENASİ hələ 5-ci əsrdə öz qəbilədaşları haqqında deyirdi: "Ermənilər həqiqəti inkar etməyi xoşlayırlar. Onlar böyük-böyük danışmağı sevən, ikiüzlü millətdir".

PETRONİY QAY AMATUNİ - erməni sovet yazıçısı: "Ermənilər də insandırlar. Amma evdə dördayaqlı gəzirlər".

Bəli, dördayaqlı heyvanlardır, bu "yanlar". Hərbi xidmətdə olanlar yaxşı bilir. Adicə hərbi papağın itirilməsi ən yüngül halda üç günlük yeməkxana naryadı ilə bitir. Onları sadəcə bizimkilərin qarşısından imkan daxilində daha uzaqlara qaçmaq və imkan daxilində sağ qalmaq maraqlandırır. Elə döyüş meydanında hərbi qənimət kimi texnikaların içindən çıxan başsız erməni papaqları bir daha sübut etdi ki, bu xalq həqiqətən də başlarına papaq taxmağa və başı papaqlı olmağa layiq deyillər. Onların layiq olduğu bir şey var: başqa xalqların əsarətində boynu zəncirli və qulağı sırğalı qul kimi və gündəlik ruziləri üçün yaşamaq. Çünki sərbəst qalan kimi quduz köpək kimi hər tərəfə hürüyürlər. Başqa cür də ola bilməz. Necə deyərlər: başçısı gülüm olanın başına külüm olar. Çünki dünyada ən ləyaqətsiz xalq kimi tarixə düşən xalqdır. Onlar çox yaxşı bilirlər ki, ordumuza qarşı hər hansı hərəkətləri, onların papaqsız, şalvarsız qalmaları ilə nəticələnir.

Bundan sonra da həmişə başı papaqsız, şalvarsız qalasınız! Öz çirkin niyyətləriniz öz başlarınızda çatlasın, necə ki çatlayır!.

Azərbaycan Prezidentimizin xalqa müraciətində dediyi dahi fikiri dünya tarixində əbədi qalacaq: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur!".

# Ortaq mənəvi dəyərlər Azərbaycançılıq ideologiyasının əsas bazasıdır

**_Dünyamızda mənəvi-əxlaqı deqradasiya pik həddinə yaxınlaşır. Maddi dəyərlər mənəvi dəyərlərin önünə keçib. Müxtəlif zərərli ideologiyalar milli mənəvi dəyərləri sıradan çıxarmağa çalışır. Lakin bu sahədə biz dünyada ən yaxşı ölkələrdən biriyik. Bəs bu tendensiya kimlərdən, nələrdən qaynaqlanır, necə qarşısını almaq olar?_**

Hamıya aydındır ki, burda ictimai, kütləvi təbliğatın böyük rolu var. Əksər ölkələrdə televiziyalar və internet portalları cəmiyyətin bütün mənəvi-əxlaqı ehkamlarını, milli ailə institutunu məhv etməyi sanki qarşılarına məqsəd qoyublar.

Psixologiyanın dəyişdirilməsinə hesablanmış filmlərdə, seriallarda, şou proqramlarda, həmçinin internet portalların yaydığı materiallarda saysız subliminal mesajlarla qadın azadlığı adı altında durmadan fahişəlik, boşanmalar, nigahdankənar cinsi əlaqələr təbliğ olunur, həyat yoldaşına xəyanət etməyin yolları peşəkarcasına öyrədilir.

Bu işlə bütün dünyada qlobal mütəşəkkil dəstə məşğul olurlar. Hətta bu prosesin sürətlə aparılması üçün bəzi dövlətlər və beynəlxalq təşkilatlar öz büdcələrindən maliyyə vəsaitləri də ayırırlar.

Milli mədəniyyətimiz və mənəvi dəyərlərimiz elmi-texniki, sosial-iqtisadi inkişafa mane olurmu? Bu suala sonda cavab verəcəyik, hələlik vəziyyəti nəzərdən keçirək. Avropa, Qərb dəyərləri adı altında bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir.

İnkişaf etmiş ölkələrlə digərlərini müqayisə edəndə deyirlər ki, görürsünüzmü, onlar mənəvi dəyərləri kənara qoyublar deyə necə inkişaf ediblər. Lakin bir ağıllı çıxıb onlara konservativ Yaponiyanı nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, bir xalq öz milli dəyərlərini, milli mədəniyyətini, dinini, ənənələrini qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Qısası, bu arqumentə bir quş.

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə dürtülən dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları və s. Mən başa düşmürəm, bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr əzilirmi? Psixi xəstələrin törətdiyi bəzi hadisələri nəzərə almasaq, xeyr!

Kişilərin həmişə onlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə xeyirli ictimai fəaliyyət göstərib. Qadın azadlığı budur, indi kommersiya TV-lərində, seriallarda təbliğ olunanlar deyil. Məncə, bir xanımın elmi ixtiralar etməsi üçün onun 1 qarışlıq mini-yubkada gəzməsi və ya müxtəlif kişilərlə intim münasibətlərdə olması tələb olunmur.

Bizim ailə institutumuzda və cəmiyyətimizdə qadının, qızın öz layiqli yeri var. Amerikalı və avropalıya azərbaycanlı kişinin öz anası, xanımı, bacısı, qızı uğrunda düşünmədən canını qurban verməsi bəlkə qəribə gələr, amma bizdə bu, müzakirəsi belə mümkün olmayan avtomatik reaksiya hesab olunur.

Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı, məsələn, hippiyə, emoya, cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır.

Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yerəmi qoyulub? Niyə valideynin öz uşağını danlamağa, qulaqburması verməyə haqqı çatmamalıdır? Bəlkə 14 yaşlı qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki mənim bəzi vacib işlərim var, özüm kefim



istəyəndə evə gələcəm?

Ya da bizdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da küçədə döyülürmü? Xeyr! Sadəcə onlar cəmiyyətə nümunə göstərilib başa çıxarılmır. Onlara vəziyyətdən asılı olaraq ya xəstə kimi, ya da əxlaqi cəhətdən pozğun adam kimi baxırlar. Haqlıdırlar da.

Yaxşı, bəs onda xaricdən idarə olunan bu "müasirlik kuklaları" nə deyib bizim ailə institumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək üçün təbliğat aparırlar? Çətin sualdır.

Dəyərlər dəyişib, dəyişir, dəyişəcək. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Məgər mənəvi keyfiyyətlər maddi nemətlərdən istifadə, elmi-texniki inkişaf üçün problem yaradır? Yaratmır! Bəs onda nə baş verir? Əslində, nə baş verdiyi, necə baş verdiyi yox (bunlar məlumdur), niyə baş verdiyi müzakirə obyektidir.

Mənə aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri başqa sivilizasiyadanmı qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə Sovet dövründə, həm dəyərlər qorunurdu, həç də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi?

Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərləri var. Mənəvi dəyərlərin elmi texniki inkişafa heç bir maneçiliyi yoxdur. Olsaydı, məsələn, konservativ Yaponiya ilə rasional Amerika arasında elmi-texnoloji cəhətdən fərqlər çox olardı.

İnteqrasiya ancaq elmi-texnoloji, hüquqi-demokratik müstəvidə ola bilər. Milli-mənəvi dəyərlər inteqrasiya olmur, olmamalıdır. Hər xalqın öz dəyərləri, öz mənəviyyatı var və mənəvi dəyərlər heç hir halda elmi-texniki, sosial-iqtisadi inkişafa mane olmur, əksinə təkan verir.

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği qadağandırsa, onda milli və mənəvi dəyərtlərə qarşı təbliğat da qanunla qadağan olunmalı və sərt cəza təyin olunmalıdır. Mətbuat Şurası, Milli Teleradio Şurası mediada mənəvi dəyərlərə təcavüzə qarşı daha ciddi tədbir görməlidir. Bu, bir milli təhlükəsizliik məsələsidir.

Necəmi?

Heç kəsə sirr deyil ki, ABŞ MKİ (CİA) şefi Allen Dallesin SSRİ-yə qarşı "Məhvetmə" planına bənzər doktrinalar hələ tam mənəvi deqradasiyaya uğramamış cəmiyyətlərə tətbiq edilir. Əxlaqsızlığın təbliği xüsusi mərkəzlər tərəfindən peşəkarcasına təşkil və idarə olunur. Bu qlobal prosesin effektiv aparılması üçün yüz milyardlarla dollar vəsait ayrılır.

Dallesin planından mövzumuza birbaşa aidiyyatı olan bəzi detallara nəzər salaq. "...Biz bütün gücümüzü insanların axmaqlaşdırılması və səfeh yerinə qoyulmasına yönəldəcəyik!

İnsan beynində xaos yaradaraq, onların dəyərlərini saxtalarıyla dəyişəcəyik və onları bu saxta dəyərlərə inanmağa məcbur edəcəyik. Necə? Biz orada öz həmfikirlərimizi, müttəfiqlərimizi tapacağıq. Məsələn, incəsənət və ədəbiyyatdan tədricən onun sosial mahiyyətini çıxaracağıq... Ədəbiyyat, teatr, kino ən alçaq insani hissləri təsvir və mədh edəcək.

Biz insanların şüuruna seks, zorakiliq, sadizm, satqinliq kultunu, bir sözlə hər cür əxlaqsızlığı yeridən və yayan adamları dəstəkləyəcəyik...

Çox az adam nə baş verdiyini başa düşəcək. Lakin biz onları köməksiz vəziyyətə salacaq, gülüş obyektinə çevirəcəyik, onları şərləməyin və cəmiyyətin tör-töküntüsü adlandırmağın yolunu tapacağıq. Xalq əxlaqının əsaslarını təhrif edərək məhv edəcəyik.

...Biz bu yolla nəsli nəslin ardınca sarsıdacağıq. İnsanların üzərində uşaq, yeniyetmə yaşlarından işləyəcəyik, əsas stavkanı isə həmişə gənclərə edəcəyik- onları mənəviyyatca korlayacaq, onlardan həyasız, heyvərə və kosmopolitlər düzəldəcəyik. Biz bunu bax belə edəcəyik!".

Necə də tanış mənzərədir deyilmi? Hazırda bütün dünyada bunlar həyata keçirilir. Azərbaycanda bəzi dairələr bu istiqamətdə təbliğat aparır. Lakin dövlətimizin milli və mənəvi dəyərlərlə bağlı siyasəti qətidir və dönməzdir.

Azərbaycançılıq ideologiyasında milliliklə beynəlmiləlçiliyi bir vəhdət halında birləşdirən, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunmasını, gələcək nəsillərə ötürülməsini həyata keçirdiyi strategiyanın prioriteti hesab edən ümummilli lider Heydər Əliyevin "Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim sərvətimizdir, biz bunu qorumalıyıq, qoruyacağıq" tezisi ümummilli ideologiyanın əsas konseptual müddəalarından biridir.

Azərbaycançılıq ideologiyasının hazırki lideri, Prezident İlham Əliyev elə siyasət həyata keçirir ki, orada milli ideya özündə həm dünya birliyinə inteqrasiyanı, həm də milli-mənəvi ruhu qoruyub saxlamağı ehtiva edir.

İlham Əliyev açıq şəkildə bəyan edir: "Azərbaycan məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub və bundan sonra da olacaq". Dövlət başçısı qloballaşma dövründə milli-mənəvi dəyərlərin, Azərbaycançılıq ideologiyasının daha çox aktuallıq qazandığını öz çıxışlarında vurğulayır.

Vahid mənəvi dəyərlərə malik cəmiyyətləri parçalamaq, qarşıdurma yaratmaq mümkün olmur. Azərbaycan xalqının böyüklüyü də bundadır- tarix boyu fərqli millət və din mənsubları bir arada mehriban şəraitdə yaşayıblar, onları birləşdirən dəyərlər ayıran dəyərlərdən xeyli çox olub.

Bu ortaq dəyərlər isə, etnik, dini, siyasi, sosial, mədəni mənsubiyyətindən asılı olamayaraq bu ölkədə yaşayan hər bir insan üçün ümumi ehkamlara söykənir. Bu ortaq dəyərlərin birləşdiyi vahid ideologiyanın adı isə Azərbaycançılıqdır.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təblığı" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

4 noyabr

## Ali Baş Komandanım!



Zəfər dastanını yazırsan
bugün,
Vətən torpağına yazılır
adın,
Yayılıb dünyaya Qarabağ
ünün,
Sancırsan Qarabağa
zəfər bayrağın.
İndi həqiqətlər görünür bizə,
Xalqın alqış deyir, Baş Komandanım.
Əfsanə deyirik, "Ulu Öndərə",
Düşməni məhv edən Baş Komandanım.
Düşmən bayrağını endirməyiniz,
Sabah, şanlı tarix sayılacaqdır.
Düşməni mat qoyan əməlləriniz,
Bütün yer üzünə yayılacaqdır.
Heyranıq İlhamın zəkasına ki,
Əfsanə yaradır Vətənlə bağlı.
Baş vurur zülmətlər dünyasına ki,
Zülməti dağıtsın idrakı, ağlı.
Bu hərb meydanında, sonsuz hünərlə,
İdraka sığmayan tilsim qırırsız.
Siz bu qəhrəmanlıq əfsanənizlə
Vətəni bizlərə tanıtdırırsız,
Bizləri, bizlərə tanıtdırırsız.

***Psixoloq, Aygül Rüstəmova***

## Gənc cüdoçularımız Avropa çempionatında mübarizə aparacaqlar




Noyabrın 4-də Xorvatiyanın Poreç şəhərində gənclər arasında cüdo üzrə Avropa çempionatı start götürəcək. AZƏRTAC xəbər verir ki, yarışda Azərbaycan komandasının tərkibində 7 idmançı mübarizə aparacaq. Belə ki, Turan Bayramov (60 kq), Rəşid Məmmədəliyev, Mətin Rzazadə (hər ikisi 73 kq), Vüqar Talıbov, Elcan Hacıyev (hər ikisi 81 kq), Camal Feyziev (100 kiloqramdan yuxarı) kişilər arasında güclərini sınayacaqlar. Qadınlar arasında isə komandamızı Ramilə Əliyeva (48 kq) təmsil edəcək. Qeyd edək ki, Avropa çempionatında 40 ölkədən 412 idmançının çıxışı gözlənilir.

## Qarabağ Azərbaycandır!

Həsrətin çox çəkdik zəfər gününün,
Artıq çözəcəyik işğal düyünün.
Sonu uzaq deyil şanlı yürüşün-
Düşmənə zərbələr vurmağa gəldik.
Biz,bizim olanı almağa gəldik!
Türkdür qardaşımız, birdir soyumuz,
Birdir adətimiz, matəm,toyumuz.
Müasir ordumuz-vuran qolumuz!
Düşmənin bağrını yarmağa gəldik.
Biz, bizim olanı almağa gəldik!
Ali Baş Komandan deyib sözünü.
Düşmən torpağımdan çəksin
gözünü.
Türkün qüdrətini, Türkün
gücünü-
Onların başına çaxmağa
gəldik.
Biz, bizim olanı almağa
gəldik!
Zərbəsi güclüdür igid əs
gərin,
Dağıdır düşmənin səddin, səngərin.
Azad etmək üçün obasın, elin -
Düşməni it kimi qovmağa gəldik.
Biz, bizim olanı almağa gəldik!
Qorxutmur bizləri sərt, soyuq hava,
Əsgərim qəhrəman, düşmənsə yava.
Təslim olmadıqca, qızışır dava-
Düşməndən hesabı sormağa gəldik.
Biz, bizim olanı almağa gəldik!
Ovuruq burnunu "dığa" axmağın,
Bir də bizə tərəf dönüb baxmasın.
Azəri türkünün zəfər bayrağın-
Şuşa qalasına taxmağa gəldik.
Biz, bizim olanı almağa gəldik!
Qarabağ, tarixin qədimdir sənin.
Gözəl diyarısan doğma vətənin.
Heyif ki, dağılıb şəhərin, kəndin -
Hər şeyi yenidən qurmağa gəldik.
Biz, bizim olanı almağa gəldik!
Qarabağ bizimdir, Azərbaycandır!
Çırpınan ürəkdir, damarda qandır.
Vətənin parçası, canımda candır-
Bu yerdə əbədi qalmağa gəldik.
Biz, bizim olanı almağa gəldik!



***İlham Əkbərov***

## XƏBƏRDARLIQ: Dağlıq ərazilərdə qar yağacaq!

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ölkə ərazisində hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən SİA-ya verilən



məlumata görə, bir neçə gün davam edən mülayim hava şəraitindən sonra noyabrın 4-də ölkə ərazisində hava şəraitinin dəyişəcəyi gözlənilir.

Əvvəlcə şimal və şərq bölgələrində, 5-i axşamdan 7-si gündüzədək isə əksər rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv, şimal və şərq rayonlarında güclü olacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 4-7 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur.

## Ata qızını boğaraq öldürüb



Oktyabrın 31-də saat 21 radələrində Quba rayonu, Barlı kənd sakini 1991-ci il təvəllüdlü İmanquliyeva Zeynəb Məhərrəm qızının öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Quba Rayon Prokurorluğundan AZƏRTAC-a bildiriblər ki, dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib, digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla zərərçəkmişin atası İmanquliyev Məhərrəm Nəsir oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı əlləri ilə boğaraq Zeynəb İmanquliyevanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Quba rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb. Məhərrəm İmanquliyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## 30 cinayətin üstü "isti izlər"lə açılıb

Respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 30 cinayətin üstünü "isti izlər"lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış beş cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 22 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 10 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.



Respublikanın avtomobil yollarında baş vermiş bir ağır yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb, bir nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 22 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 31 nəfər saxlanılıb.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**